# MSK Milli Məclisə növbədənkənar seçkilərə yekun vurub



**Məzahir Pənahovun sədrliyi ilə sentyabrın 16-da Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

İclasda Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar MSK tərəfindən seçkilərin ümumi yekunlarına dair protokolun tərtib edilməsi, seçkilərin yekunlarının yoxlanılması və təsdiq olunması üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsinə baxılıb.

*(ardı 2-ci səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 202 (30606) 17 sentyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan dövlətinin idman siyasəti ölkəmizin beynəlxalq nüfuzunu yüksəldir

## Prezident İlham Əliyev Formula 1 təşkilatçılarını qəbul edib



Səhifə ⇨ 2

# ABŞ-nin Azərbaycanla COP29 əməkdaşlığı davam edir



**Sentyabrın 16-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Antoni Blinken Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasının vacibliyini vurğulayaraq, Amerika Birləşmiş Ştatlarının bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib. O, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə edilmiş nailiyyətləri, o cümlədən dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanmasını müsbət addım kimi qiymətləndirib.

Regionda artıq sülhün mövcud olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, məhz Azərbaycanın səyləri nəticəsində bölgəmizdə ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni reallıqlar və status-kvo yaranıb. Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu qeyd edərək bu müqavilənin imzalanması üçün Ermənistanın öz Konstitusiyası və digər qanunverici aktları əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoymasının, həmçinin keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün təsisatların fəaliyyətinə son qoyulmasının vacibliyini vurğulayıb. Sərhədlərin delimitasiyası məsələsinə toxunan Prezident İlham Əliyev ikitərəfli proses çərçivəsində əldə olunmuş müsbət nəticələri qeyd edib və Əsasnamə əsasında bu prosesin aparılacağını bildirib.

Telefon söhbəti zamanı COP29-un ölkəmizdə keçirilməsi məsələsinə toxunulub.

Antoni Blinken COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana dəstək göstərdiyini qeyd edərək Azərbaycan ilə ABŞ-nin COP komandalarının və heyətlərinin yaxından əməkdaşlıq etdiklərini vurğulayıb.

Bu əməkdaşlıqdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev COP çərçivəsində iqlim maliyyələşdirilməsi ilə əlaqədar mühüm qərarların qəbul edilməsi ilə bağlı xüsusilə inkişaf etmiş dövlətlər tərəfindən konsensusun əldə ediləcəyinə ümidvar olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Yeniləşən Azərbaycanın milli təhsili yeni məktəblərlə müasirləşir

Səhifə ⇨ 9

# Ermənistanın avantürizmi: Qərb və Rusiya riyakarlıqdan daşınmalıdır!

## *İki adaxlısı olan qız, ikili oyunlar və bədbəxtlik ssenarisi*

**“Qızın iki adaxlısı var”. Rejissor Hüseyn Seyidzadə tərəfindən bəstəkar Üzeyir Hacıbəyovun eyniadlı operettası əsasında ekranlaşdırılmış “O olmasın, bu olsun” filmindəki bu məşhur ifadə çoxlarımızın xatirindədir. Ermənistan, təxminən, həmin qızın günündədir. Hərçənd, ABŞ-ni ayrıca götürsək, İrəvanın hətta üç adaxlısının olduğunu deyə bilərik. Fikrimizi əsaslandırmaq üçün tarixə nəzər salaq. Amma əvvəlcə bildirək ki, Ermənistan filmdəki Gülnaz qədər pak, saf və təmiz qız deyil. Əslində, ölkənin “adaxlıları” olan Qərbə və Rusiyaya da Məşədi İbad və Sərvər kimi baxmaq düzgün olmaz. Birincilər son dərəcə riyakardırlar. Yazımız bu riyakarlığın müxtəlif təzahür formaları barədədir.**

*

Əlqərəz, ondan başlayaq ki, 1826–1828-ci illərin Rusiya – İran müharibəsindən sonra, daha dəqiq desək, 1830-cu ildə ermənilərin Qafqaza köçürülməsinə start verildi. Bu, Rusiya tərəfindən həyata keçirildi. Məqsəd türk-müsəlmanların olduğu bölgədə xristian bufer zonası yaratmaq idi. Mövcud ssenari, yekunda Cənubi Qafqazda erməni vilayətinin formalaşması reallığını doğurdu ki, bu, Qərbin də maraqlarına tam şəkildə cavab verirdi. Sonrakı mərhələdə həmin vilayətin möhkəmləndirilməsi də həmçinin.

Beləliklə, 1830-cu ildən 1918-ci ilədək Rusiya “erməni kartı”ndan Qafqazın türk-müsəlman əhalisinə, Qərb isə Osmanlı dövlətinə qarşı istifadə etdi. Doğrudur, ikincinin “Şərq məsələsi”nin tərkib hissəsi kimi erməni amilindən kənar durub “yunan kartı”nı üstün tutduğu vaxtlar da oldu. Ancaq Birinci dünya müharibəsi dönəmində Qərbin “erməni sevdası”nın yenidən aktuallaşdığını gördük. Həmin mərhələdə yeni təşəkkül tapmış bolşevizm də bu sevdanın daşıyıcısına çevrildi. İtirən biz olduq. Nəinki biz, bütövlükdə, regionun türk-müsəlman kəsimi.

*(ardı 3-cü səhifədə)*



# Qərbin boğazında qalan “kal armud”




Səhifə ⇨ 4

# Trampa qarşı ikinci sui-qəsd cəhdi



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Formula 1 təşkilatçılarını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Formula 1-in prezidenti və baş icraçı direktoru Stefano Domenikalini, Formula 1-in məsləhətçisi Flavio Briatoreni və britaniyalı supermodel Naomi Kempbelli qəbul edib.**

Formula 1-in növbəti dəfə ölkəmizdə keçirilməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu yarışların Azərbaycanın dünyada daha çox tanıdılması baxımından ildən-ilə böyük rol oynadığını qeyd etdi.

Dövlətimizin başçısı Formula 1-in Azərbaycanda keçirilməsinə göstərdiyi dəstəyə görə Stefano Domenikaliyə və Flavio Briatoreyə minnətdarlığını bildirdi.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı. Formula 1-in Azərbaycanda avtomobil idmanının inkişafı sahəsinə verdiyi töhfələr də vurğulandı. Həmçinin ölkəmizdə kartinqin inkişafı məsələlərinə toxunuldu.

Görüşdə COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyəti qeyd edildi, ekologiya sahəsində davamlılıq məsələsində də Formula 1-in daha fəal olmasının önəmi vurğulandı.

Dövlətimizin başçısı qonaqları COP29 tədbirində iştiraka dəvət etdi.

Bakının inkişafının onda dərin təəssürat hissi yaratdığını deyən Naomi Kempbell paytaxtda şahidi olduğu müasir infrastrukturu, o cümlədən məşhur memar Zaha Hadidin layihəsi olan Heydər Əliyev Mərkəzini məmnunluqla qeyd etdi.

Britaniyalı supermodel ölkəmizdə modanın inkişafına töhfə və azərbaycanlı dizaynerlərin fəaliyyətinə dəstək verməyə hazır olduğunu bildirdi.

# Ölkə Prezidentinin Beynəlxalq Avtomobil Federasiyasının prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib.**

Məhəmməd Ben Sulayem ötən ilin dekabrında Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının və Federasiyanın mükafatlandırma mərasiminin Bakıda keçirilməsinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Qonaq Azərbaycan Avtomobil Federasiyası və klublar ilə sıx əlaqələrin mövcud olduğunu deyərək, əməkdaşlığın genişləndiyini vurğuladı.

Məhəmməd Ben Sulayem COP çərçivəsində Beynəlxalq Avtomobil Federasiyasının nəqliyyat sahəsində fəaliyyətə dəstək verəcəyini və bununla bağlı Federasiyanın mütəxəssislərinin ölkəmizlə əməkdaşlıq edəcəklərini bildirdi.

Dövlətimizin başçısı Beynəlxalq Avtomobil Federasiyasının prezidentini COP29-a dəvət etdi.

# BRICS ölkələrinin Media Sammiti



**Moskvada keçirilən BRICS ölkələrinin 7-ci Media Sammiti işini başa çatdırıb.**

Sammit çərçivəsində "Çoxqütblü dünyada sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsində BRICS media ictimaiyyətinin rolu" mövzusunda dəyirmi masa formatında panel müzakirələri keçirilib.

Tədbir çərçivəsində TASS İnformasiya Agentliyinin 120 illik yubileyinə həsr olunmuş MDB ölkələrinin humanitar universitetlərinin və dövlət ali təhsil müəssisələrinin müvafiq fakültə tələbələrinin yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsi Nargilə Məhərrəmova da təltif edilənlər arasında olub.

Xatırladırıq ki, sammitdə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin də iştirak edib.

**XQ**

# Soydaşlarımızla bağlı Rusiya XİN-ə müraciət

**Azərbaycan Çeçenistanda saxlanılan və zorla Ukrayna ilə müharibə zonasına göndərilməsi iddia edilən azərbaycanlılarla bağlı Rusiya Xarici İşlər Nazirliyinə müraciət edib.**

Bu barədə APA-nın Moskva müxbirinə diplomatik mənbələrdən məlumat verilib. Bildirilib ki, miqrasiya probleminə görə Çeçenistanda saxlanılan Azərbaycan vətəndaşları Nihad Rzayev, Elxan Şirinov və Vüqar Məhərrəmovla bağlı Rusiya XİN-ə nota göndərilib.

Qeyd edək ki, adları çəkilən Azərbaycan vətəndaşlarının may ayından Çeçenistana işləməyə getdikləri, orada miqrasiya probleminə görə həbs olunduqları bildirilib. Onlara zorla sənəd imzalatdırılıb, Ukrayna ilə müharibə zonasına göndərildikləri iddia olunub.

# Nikaraqua Respublikasının Prezidenti Zati-aliləri cənab Daniel Orteqa Saavedraya

**Hörmətli cənab Prezident!**

Nikaraqua Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Nikaraqua arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi və əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Nikaraqua xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 sentyabr 2024-cü il**

# Birinci vitse-prezident: Bütün məktəblilərə möhkəm cansağlığı, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən ölkəmizin müxtəlif bölgələrində inşa və təmir olunan təhsil müəssisələri ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**



AZƏRTAC paylaşımı təqdim edir: "Heydər Əliyev Fondunun ölkənin təhsil sisteminə növbəti töhfəsi. fondun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində inşa və təmir edilən təhsil müəssisələrinin açılışları davam edir. Bütün məktəblilərə möhkəm cansağlığı, gümrahlıq, tükənməz enerji, əzmkarlıq və əla qiymətlər arzulayıram! 16.09.2024".

# MSK Milli Məclisə növbədənkənar seçkilərə yekun vurub



**(əvvəli 1-ci səhifədə)**

Komissiyanın iclasında öncə seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi istiqamətində gerçəkləşdirilən genişmiqyaslı layihələr və atılan məqsədyönlü addımlardan danışılıb. Qeyd olunub ki, Milli Məclisə seçkilər ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçirilməklə respublikamızın ictimai-siyasi həyatında əlamətdar bir tarixi hadisəyə çevrilib. Seçkilərə rəsmən start verildiyi gündən başlayaraq Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunub, nəzərdə tutulan bütün tədbirlər Komissiyanın hazırlayıb təsdiq etdiyi Təqvim planı əsasında ardıcıl, sistemli və keyfiyyətlə reallaşdırılıb.

Seçkilərdə mühüm prioritet məsələlərdən biri olan seçici siyahılarının dəqiqləşdirilməsinin qanunvericilikdə nəzərdə tutulmuş müddətdə uğurla həyata keçirilməsi, bu işdə media qurumları və sosial media platformalarının imkanlarından da geniş istifadə olunmaqla, müxtəlif vasitələrlə əhatəli fəaliyyət göstərilməsi təqdirlə vurğulanıb. "ASAN xidmət"lə birgə layihə çərçivəsində ilk dəfə 2024-cü il Azərbaycan Respublikası Prezidenti seçkilərində əsası qoyulan və seçkilərdə vətəndaşların səsvermə hüquqlarının daha səmərəli təmin edilməsinə hədəflənən mütərəqqi və effektiv bir vasitə Milli Məclisə seçkilərdə də davam etdirilib.

Seçkilərin ən təqdirəlayiq tərəflərindən biri məhz siyasi partiyaların bu seçkilərə indiyədək görünməmiş şəkildə maraq göstərməsi, ölkədə fəaliyyət göstərən 25 siyasi partiyanın öz namizədləri ilə seçkilərdə iştirak etməsi olub. Bütün namizədlərə seçkiqabağı təşviqat dövründə geniş imkanlar və hərtərəfli bərabər şərait yaradılıb.

Media subyektləri ödənişli əsaslarla seçkiqabağı təşviqata qoşulmaqda böyük fəallıq nümayiş etdiriblər. Bu məqsədlə 58 media qurumundan MSK-ya təqdim olunan müraciətlərin hamısı təmin edilib.

Komissiyanın iclasında xüsusi qeyd edilən məsələlərdən biri də seçkilərin geniş aşkarlıq və şəffaflıq mühitində keçməsi olub. Bildirilib ki, ümumilikdə 121 mindən artıq seçki iştirakçısı səsvermə günü məntəqə seçki komissiyalarının işini müşahidə etmək hüququ əldə edib. Seçkilərin müşahidəsinə 51 xarici qurum və 69 ölkəni təmsil edən 598 beynəlxalq müşahidəçi, o cümlədən nüfuzlu beynəlxalq media subyektlərinin təmsilçiləri qatılıblar.

Seçkilərdə 2-si xarici partnyorları ilə birgə olmaqla, 3 ixtisaslaşmış təşkilat tərəfindən keçirilən "exit-poll"ların nəticələri MSK-nın rəsmi nəticələri ilə, xəta əmsalı nəzərə alınmaqla, demək olar ki, üst-üstə düşüb.

Seçkilərin müşahidəsinə siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının ciddi maraq göstərməsinə də ayrıca diqqət çəkilib. Bildirilib ki, 24 siyasi partiya 65 minə yaxın təmsilçisi ilə seçkilərin müşahidəsinə qatılıb.

Bütün ölkə coğrafiyası əhatə olunmaqla, 1000 məntəqədə quraşdırılan yüksək görüntü effektinə malik veb-kameralar səsvermə günü seçki məntəqələri fəaliyyətə başladığı andan etibarən proseslərin gedişini hamı üçün açıq platformada bütünlüklə, arasıkəsilmədən və real vaxt rejimində dünyanın istənilən yerindən heç bir qeydiyyat tələb olunmadan internet istifadəçiləri tərəfindən müşahidə etməyə imkan yaradıb.

İclasda, bildirilib ki, Milli Məclisə seçkilər 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində keçirilib. Bu seçkilərdə işğaldan azad olunmuş ərazilərdəki daimi seçki məntəqələrinin sayı daha da artırılaraq 34-ə çatdırılıb, o cümlədən müvəqqəti əsaslarla fəaliyyət göstərən 20 seçki məntəqəsi yaradılıb. Səsvermə günü seçicilər azad və sərbəst şəkildə öz konstitusion hüquqlarını reallaşdırıb və ümumilikdə, ölkə üzrə seçicilərin 37,24 faizi səsvermədə iştirak edib.

İclasda o da qeyd olunub ki, səsvermə günü və ondan sonrakı gün MSK və ya aşağı seçki komissiyalarına hər hansı qanun pozuntusu barədə heç bir şikayət və ya müraciət daxil olmayıb. Səsvermə günündən sonra seçkilərə yekun vurulanadək daxil olan müraciətlər və müxtəlif mənbələrdən əldə edilən məlumatlar maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə tam şəffaf, obyektiv və hərtərəfli araşdırılaraq qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada operativ şəkildə iclasa çıxarılıb, geniş və ictimaiyyətə açıq müzakirələrin ardınca müvafiq qərarlar qəbul olunub.

MSK-nın iclasında iştirakçılar Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi barədə məlumatlandırıldıqdan sonra gündəlikdə nəzərdə tutulmuş məsələlərin müzakirəsinə keçilib. Bildirilib ki, qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada MSK-ya təqdim olunan dairə seçki komissiyalarının protokolları və onlara əlavə edilən zəruri seçki sənədləri Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə təfsilatlı araşdırılıb. Komissiya sənədlərin yoxlanılması nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün olmayan 13 saylı Xəzər ikinci seçki dairəsinin 12, 15 saylı Yasamal birinci seçki dairəsinin 26, 18 saylı Nərimanov – Nizami – Binəqədi seçki dairəsinin 15, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 1, 38 saylı Gəncə birinci seçki dairəsinin 13, 41 saylı Gəncə – Samux – Goranboy seçki dairəsinin 38, 48 saylı Abşeron birinci seçki dairəsinin 4, 5 və 9, 52 saylı Yevlax seçki dairəsinin 2 və 8, 80 saylı Lerik – Astara seçki dairəsinin 88, 82 saylı İmişli – Saatlı seçki dairəsinin 41, 42, 44 və 45, 104 saylı Gədəbəy seçki dairəsinin 20, 25 və 34, eləcə də 119 saylı Ağdam seçki dairəsinin 21 saylı seçki məntəqələrində səsvermənin nəticələrini etibarsız hesab edib. O cümlədən, seçkilərin hazırlanması, keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı fəaliyyətlərində nöqsanlara yol verən, ümumilikdə, 35 seçki məntəqəsinin məntəqə seçki komissiyası buraxılıb.

İclasda cari ildə keçirilən Milli Məclisə növbədənkənar seçkilərdə dairə seçki komissiyalarının səsvermənin yekunlarına dair protokolları və onlara əlavə edilmiş digər seçki sənədlərinin yoxlanılması işi başa çatmış hesab edilib, seçkilərin ümumi yekunları haqqında MSK-nın protokolu tərtib olunub və bütün Komissiya üzvləri tərəfindən imzalanaraq təsdiqlənib. Həmçinin seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, seçkilərin yekunlarının təsdiq edilməsi üçün komissiyanın protokolunun müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmasına qərar verilib.

**XQ**

# Ermənistanın avantürizmi: Qərb və Rusiya riyakarlıqdan daşınmalıdır!

(əvvəli 1-ci səhifədə)

1918-ci ildə tarixi Azərbaycan torpaqları hesabına Ermənistan dövləti yaradıldı. 1920-ci ildə sovet Rusiyasının işğalı, sonradan SSRİ-nin təşəkkülü ilə "erməni kartı" yenidən birbaşa rus imperializminin sərəncamına keçdi. Nəticə etibarilə yenə ərazilər itirdik. Əlbəttə, həmin müddətdə bu kartın Qərb qanadı da aktivliyini qorudu. Nəhayət, 1987-ci ildən başlayaraq, həm rus, həm də Qərb imperializmi erməni amilinin daha da güclənməsi baxımından müştərək fəaliyyətə keçdilər. Ancaq sabiq SSRİ-nin hələ möhkəm olduğu vaxtlarda da



ermənilərə Azərbaycan torpaqları hesabına ərazi hədiyyələrinin edilməsi cəhdlərinin mövcudluğundan xəbərdarıq.

Ulu öndər Heydər Əliyev bu kimi "ssenarilərin" qarşısını böyük məharət alırdı. Təsadüfi deyil ki, dahi şəxsiyyətin 1987-ci ildə SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından dərhal sonra ermənilər hərəkətə keçdilər. Onların Azərbaycanın Qarabağ bölgəsinə iddiaları baş qaldırdı. Yenə Qərb və Rusiya müştərək şəkildə erməni amili naminə hərəkətə keçdilər. Nəticədə torpaqlarımızın 20 faizi işğal olundu, bir milyondan çox həmvətənimiz öz doğma yurd-yuvalarından didərgin salındı. Yenicə müstəqilliyini qazanmış Azərbaycan daxili anarxiya və xaos girdabında boğularaq, gedişata qarşı heç nə edə bilmədi. Tədricən "erməni kartı" Qərbin və Rusiyanın ölkəmizi tamamilə parçalamaq, dövlətçiliyimizin məhvi alətinə çevrildi. Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanda siyasi hakimiyyətə qayıdışına qədər bu mənfur proses var gücü ilə davam etdi.

Ulu öndər Heydər Əliyev bir çox anti-Azərbaycan planları alt-üst etdiyi kimi, erməni işğalını da dayandırdı. İnsanlarımızın dahi liderə inamı nəticəsində xalq-hakimiyyət vəhdəti gücləndi. Bu vəhdət gələcək inkişafın əsasını qoydu. Ölkəmizdə dövlət hakimiyyəti möhkəmləndi və illər keçdikcə özündə kənar təsirlərə qarşı ciddi müqavimət əzmi formalaşdırdı. Heydər Əliyevin Qarabağ uğrundakı diplomatik savaşı qətiyyətli obraz qazandı. Azərbaycanda və kənarda elə bir mötəbər toplantı olmadı ki, bu böyük şəxsiyyət orada Qarabağdan və işğal edilmiş digər rayonlarımızdan söz açmasın. Heydər Əliyev dühasının uğurlu siyasət kursu nəticəsində xarici aləm, nəhayət ki, Azərbaycan reallıqlarını görməyə başladı, işğal faktı bir çox beynəlxalq sənədlərdə əksini tapdı.

*

Amma dünya ikili standartlarından, ermənipərəstliyindən də qalmadı. Erməni sevdası naminə Qərb – Rusiya mütəşəkkilliyi özünü ATƏT-in Minsk qrupu adlı təsisatın egidası altında göstərdi. O qrup ki, tərkibində ABŞ, Fransa və Rusiya təmsil olunurdu. O qrup ki, ölkəmizi işğalla barışmağa çağırmaqdan başqa heç nə etmədi. Regiona mənasız səfərlər reallaşdıran Minsk qrupunun həmsədrlərinin qarşısında dayanan başlıca vəzifə işğalı leqallaşdırmaq oldu. Bunun üçün strategiya da hazırladılar – illər keçəcək, nəsillər dəyişəcək və Azərbaycan insanı üçün Qarabağ heç bir əhəmiyyət daşımayacaq.

Lakin ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev bütün məkrli hesablamaları puça çıxardı. Dövlətimizin başçısının 2003-cü ilin oktyabrından başlayaraq yeritdiyi siyasi xətt Heydər Əliyevin Qarabağ davasındakı ideoloji məzmunu həm möhkəmləndirdi, həm də bu məzmun üçün iqtisadi baza formalaşdırdı. Görülmüş işlər bəhrəsini 2020-ci ildə – 44 günlük Vətən müharibəsi zamanı verdi. Azərbayan Ermənistan üzərində tarixi Zəfər qazanaraq işğala son qoydu, haqqına sahibləndi.

2018-ci ildə Qərb Ermənistanı Rusiyadan qoparmağı bacarmışdı. Əslində, "Qızın iki adaxlısı" söhbəti məhz həmin vaxtdan meydana çıxmışdı. Amma 2020-ci il müharibəsindən sonra yaşanan proseslər "erməni sevdası"nın aktuallığı baxımından başqa mənzərələr doğurmuşdu. Həmin mənzərələri yenə görürük. Görürük ki, Qərb və Rusiya erməni maraqları naminə həm birgə fəaliyyətdə, həm də rəqabətdədir. Onlar iki yüz illik erməni planının iflasa uğradığını dərk etsələr də, yenə özlərini daha yaxşı adaxlı qiyafəsində göstərməyə çalışırlar. Bu çalışmalar son dərəcə böyük rikayarlıq səhnələri ilə yadda qalır. Elə 44 günlük müharibə günlərində də eyni meyil yaşanmışdı. Azərbaycanın düzgün siyasi kursu fonunda "adaxlıbazlıq" heç bir nəticə verməmiş və yenə də vermir. Əksinə, Cənubi Qafqazda erməni avantürizmi üçün çəmbər get-gedə daralır.

Çəmbərin daralmasından söz düşmüşkən, 2023-cü ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən əvvəlki dövrü xatırlayaq. Ermənistan baş naziri Nikol Paşinyan ölkəmizin Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanıdığını desə də, həm rəsmi İrəvan, həm onun xaricdəki havadarları, həm də Rusiyadakı ermənipərəstlər cidd-cəhdlə Qarabağdakı erməni separatizminin saxlanmasına çalışırdılar. Rusiya sülhməramlılarının bölgəyə silah-sursat daşınmasına göz yumduqları bir vaxtda, Qərb Ermənistanın mövcud istiqamətdəki təminatına girişirdi.

Moskva Qarabağ avantürizmi üçün özünün lazımlılığını təsdiqləməyə, Qərb isə həmin avantürizmə sahiblənmək naminə daha iddialı olduğunu göstərməyə çalışırdı. Belə bir şəraitdə baş nazir N.Paşinyan bildirdi ki, Qarabağın özünün seçilmiş hakimiyyəti var. Sanki, eynilə otuz il əvvəlki proseslər yaşanırdı. Məsələn, 1992-ci ildə Azərbaycanla Ermənistan arasında atəşkəs elan edilmiş, buna baxmayaraq, dinc azərbaycanlılar qətlə yetirilmiş və rəsmi İrəvan demişdi ki, məsələnin onunla əlaqəsi yoxdur, Qarabağ ayrıca dövlətdir və sair və ilaxır. Əlbəttə, Azərbaycan otuz il əvvəlki Azərbaycan deyildi və Paşinyanın bunu dərk etməməsi nəinki ona, bütövlükdə, dünya erməniliyinə ikinci rüsvayçılığı yaşatdı.

Bəli, Azərbaycanın antiterror əməliyyatı Qarabağdakı qondarma rejimi, necə deyərlər, göy əskiyə büküb tarixin zibilliyinə atdı. Nüfuzlu "Politico" nəşri yazırdı ki, bunadək, konkret olaraq sentyabrın 17-də Rusiyanın ABŞ-ın və Avropa İttifaqının nümayəndələri İstanbulda gizli görüş keçiriblər. Görüşdə ABŞ-ın Qafqaz üzrə baş müşaviri Lui Bono, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar və Ermənistanla Azərbaycan arasında münasibətlərə nəzarət edən Rusiya Prezidentinin xüsusi nümayəndəsi İqor Xovayev iştirak ediblərmiş. Məqsəd Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsinin qarşısını almaq imiş. Üçlük ölkəmizi cilovlamaq üçün təzyiq tədbirləri hazırlamaq istəyib.

*

Bu gün də Azərbaycanı öz prinsiplərindən döndərmək, Cənubi Qafqazda erməni avantürizmini saxlamaq, ölkəmizi ədalətsiz sülhlə barışdırmaq istiqamətində "fəaliyyət" gerçəkləşdirilir. Mövcud "fəaliyyətin" Qərb və Rusiya xətti eyni dərəcədə aktivdir. Tam əminliklə deyə bilərik ki, Ukrayna müharibəsi fonunda özünü qabarıq formada göstərən geosiyasi rəqabətin Cənubi Qafqaz seqmenti aktuallaşıb. Rusiya əvvəl də istəyirdi, indi də çalışır ki, Ermənistanı öz orbitinə qaytarsın. Qərb isə ikincini əlində möhkəm saxlamaqla, 2018-ci il inqilabının nəticələrini qorumağa köklənib. Mövcud situasiyada rəsmi İrəvan hər iki "adaxlıya" ərə getmək sözü vermiş qıza bənzəyir. Daha doğrusu, "qız" Qərblə aşkar münasibətdədir, Rusiya ilə gizlində görüşür. Məsələ ondadır ki, bu "görüşdən" Qərbin də xəbəri var. Bəs niyə baş verənlərə laqeyddir? Səbəb çox sadədir – Qərb çalışır ki, mahiyyəti və məramı pozğunluqla yoğrulmuş "fahişəni" əlini cibinə salmadan, başqasının, indiki halda Rusiyanın hesabına dolandırsın. Moskva bu işi sevə-sevə görür. Təsadüfi deyil ki, rəsmi İrəvanın anti-Rusiya tezislərinə, Kremlin birincini qınayıcı ritorikasına baxmayaraq, Rusiya ilə Ermənistanın iqtisadi əlaqələrində ciddi artım var.

Yeri gəlmişkən, 2023-cü ildə Moskva ilə İrəvan arasındakı qarşılıqlı ticarətin həcmi 55,8 faiz artaraq, 7,4 milyard dollara çatıb. Müqayisə üçün deyək ki, 2020-ci ildə mövcud həcm cəmi 2,3 milyard dollar, 2021-ci ildə 2,6 milyard dollar, 2022-ci ildə 91,7 faiz artaraq 5 milyard dollar, ötən il isə 7,4 milyard dollar olub. Bu il tərəflər rekord göstəriciyə imza atmağı hədəfləyirlər. Söhbət 14-16 milyard dollara qədərki nəticənin əldə olunmasından gedir. Deməli, Rusiya Ermənistan iqtisadiyyatının əsas himayəçisi olmaqda davam edir.

Onu da bildirək ki, Ermənistan iqtisadiyyatı durğun vəziyyətdədir və məhdud sənaye potensialına malikdir. Onun müstəqil şəkildə ticarət dövriyyəsinin belə kəskin artımını təmin edə bilməsi mümkünsüzdür. Məsələ burasındadır ki, ölkədə son üç ildəki dinamika, ilk növbədə, xarici malların və avadanlıqların, o cümlədən, ikili təyinatlı məhsulların təkrar ixracı və geri alınması üzrə müxtəlif sxemlər hesabına təmin edilib. Ermənistan və Rusiya şirkətləri bu malları ABŞ və Avropa İttifaqının sanksiyalarından yan keçərək vasitəçilərin və nəqliyyat şirkətlərinin yardımı ilə daşıyıblar. Təkrar ixracdan təkcə Ermənistan pul qazanmır. Axı Aİ-nin Rusiya neftini və qazını almaqdan imtinası şəraitində Moskva üçün də büdcəni doldurmaq vacibdir.

Bəli, hazırda Ermənistan, eyni zamanda, Rusiyanın dövlət büdcəsinin dolmasına töhfə verən mənbədir. Yəni, yuxarıda sadalanan rəqəmlərin arxasında reallıq dayanır. Bundan başqa, Ermənistanın xarici ticarətinin sürətli artımında pay qızılın və almazın təkrar ixracının həcmi ilə də bağlıdır. Belə ki, ölkənin ixrac etdiyi 8,4 milyard dolların 21,5 faizi və ya 1,8 milyard dolları qızılın, 7 faizi və ya 589 milyon dolları isə almazın hesabınadır. Ümumilikdə, Ermənistanın ixracının 28,5 faizi Rusiya qızılının və almazının Birləşmiş Ərəb Əmirliklərinə və Honqkonqa təkrar ixracının payına düşür.

Beləliklə, Ermənistanın Rusiya hesabına malların təkrar ixracına görə sürətlə zənginləşməsi İrəvana imkan verir ki, xaricdən, o cümlədən, Qərbdən silah alınmasının həcmini xeyli artırsın. Deməli, Moskva ona pul qazanmaq imkanı yaradır. Guya, fəal şəkildə anti-Rusiya sanksiyaları yeridən və onlardan yan ötənləri tənqid edən Paris, Brüssel və Vaşinqton Ermənistanın əlavə vəsaitləri haradan əldə etdiyini bilmir? Hər üçü bilir, özü də çox gözəl. Amma duruma göz yumurlar.

Digər tərəfdən, Qərb İrəvana təkcə silah satmır, həm də aktiv maliyyə yardımı göstərir. Aİ Ermənistana rəsmi formula inansaq, infrastrukturun inkişafına, rəqəmsallaşmaya, iqlim layihələrinə, nəqliyyat və demokratik islahatlara yönəlmiş 2,6 milyard avro ayırıb. Paşinyan administrasiyası bundan "qənaət etdiyi vəsaiti" hərbiləşmə üçün sərf edir. ABŞ və Fransaya gəlincə, Vaşinqton USAID xətti ilə Ermənistana maliyyə yardımını iki dəfədən çox – 120 milyon dollardan 250 milyon dolladək artırıb. Paris isə Hindistan və digər ölkələr vasitəsilə Ermənistanı öz lisenziyası əsasında istehsal olunan silahlarla təmin edir.

Əlbəttə, ola bilməz ki, Rusiya Ermənistanı yalnız iqtisadi planda dəstəkləsin. Yəni, erməni jurnalistlərin sualları qarşılığında Moskvanın İrəvanla müttəfiqlik münasibətlərinə sadiqliyini dəfələrlə vurğulayan rus rəsmiləri havadan-sudan danışmırlar. Deməli, Paşinyan və komandasının üzvlərinin rusiyalı həmkarlarına yağdırdıqları ittihamlar, birincilərin Kremlin hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistanı müdafiə etməkdə acizlik göstərməsini bildirmələri və sair bu sayaq deyimləri, ikincilərin "cavab atəşləri" ilə üzə çıxan gərginlik ab-havası yalnız illüziyadır. Çünki mövcud fonda vurğulanmalı bəzi məqamlar var. Məsələn, Moskva İrəvana "Smerç" tipli raketləri tədarük edir. Bununla bağlı konkret müqavilə mövcuddur. Maraqlıdır ki, 2022-ci ildən başlayaraq, Rusiyadan Azərbaycana bir dənə də olsun güllə gəlməyib. Guya ki, Ukrayna ilə müharibə buna imkan vermir. Deməli, Ermənistana olar, Azərbaycana yox?!

*

Sonda onu da vurğulayaq ki, Qərbin və Rusiyanın Ermənistana "elçi düşməsi" fonundakı meydana çıxan riyakarlıq səhnələri, erməni təəssübkeşliyinin aktivləşməsi İrəvanın illüziya bataqlığındakı yerini daha da möhkəmləndirir. Nəticə etibarilə Paşinyan və komandası ölkəmizlə sülhdən boyun qaçırır, mövcud istiqamətdə yeni-yeni iddialar irəli sürür. Bir sözlə, Ermənistan yenə "odla oynayır". Ölkənin indiyədək bu davranışının hansı acınacaqlı durumlara səbəb olduğu hər kəsə yaxşı məlumdur. Yəni, heç bir halda, erməni təəssübkeşliyinin təzahürü olan tədbirlərin Azərbaycanı tutduğu haqq yolundan döndərməsi mümkün deyil. Yaxşı olar ki, bunu həm Qərbdəkilər, həm də Rusiyadakılar yaxşı-yaxşı dərk etsinlər. Yox, əgər məqsədləri Ermənistanın mövcudiyyətinə son qoymaqdırsa, yəni, onsuz da taleyinə pozğunluq yazılmış bu "fahişəni" tam bədbəxt eləməyə çalışırlarsa, o zaman buyursunlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**"Azərbaycan tezliklə COP29-a evsahibliyini gerçəkləşdirəcək. Bakı bundan əvvəl sülhə can atdığını göstərməlidir". Bu fikri Fransanın Ermənistanda səfərdə olan xarici işlər naziri Stefan Sejurnye dünən İrəvanda keçirdiyi mətbuat konfransında səsləndirib. Fransa XİN rəhbərinin başqa nələri dilə gətirdiyindən söz açacağıq. Hələlik isə...**

# İrəvan üçün "illüziya çələngi"

## *Yaxud Parisin Sejurnyesayağı pozuculuq etüdləri*



Ondan başlayaq ki, S.Sejurnyenin diqqətə çatdırdığımız fikri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) müstəvisində Qərbin bəzi dairələrinin ölkəmizə qarşı təzyiq cəhdlərinin göstəricisidir. Belə çıxır ki, Bakı COP29-a görə İrəvanla barış müstəvisindəki qarşısına qoyulan istənilən sazişə imza atmalıdır. Bu nə yaramaz məntiqdir? Ancaq yaramazlığı tirajlayan Fransanın xarici işlər naziridirsə, hər şey aydındır. Təəccüblənməyə dəyməz. Bu nazirin rəsmi Parisin İrəvanla Bakı arasında ərazi bütövlüyünə və suverenliyinə hörmətə əsaslanan, habelə regiona sabitlik gətirəcək sülh müqaviləsinin tezliklə imzalanmasına yardım edəcəyinə dair fikirlərini səmimi qarşılamaq mümkünsüzdür. Fransanın "sülh təşəbbüsü" Azərbaycan üzərinə məsuliyyət qoymaq ritorikasına əsaslanırsa, Sejurnye zəhmət çəkməsin.

Əlbəttə, S.Sejurnye və ölkəsi gerçək yox, Ermənistana yeni avantürizm məramı qazandıracaq sülhə yardım göstərməyə çalışır. Əslində, onun üzünü görmədən danışığını eşitsək, deyərik ki, gəlişigözəl ifadələri sıralayan Fransanın deyil, Ermənistanın xarici işlər naziridir, daha dəqiq desək Ararat Mirzoyandır. Çünki fransız rəsmisi ilə A.Mirzoyanın bildirdikləri arasında hansısa fərq istisnadır.

Bəli, Ermənistan rəhbərliyindəkilər ölkələrinin ərazi bütövlüyü və suverenliyi məsələsini qabardıb, rəsmi İrəvanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərin icrasından boyun qaçırırlar. Fransanın XİN rəhbəri isə Parisin belə bir sərsəm mövqeyini müdafiə edəcəyini vurğulayır. Nəticə etibarilə, baş nazir Nikol Paşinyanın və komandasının manipulyasiyasını dəstəkləyir.

Deməli, 1991-ci ilin Alma-Ata Bəyannaməsinin Bakı-İrəvan sülh prosesindəki vacibliyinə toxunan S.Sejurnye, faktiki olaraq, Qərbin Cənubi Qafqaz müstəvisində özünü göstərən anti-Rusiya ritorikasından da söz açıb. Onun dediklərindən belə nəticə hasil olur ki, Moskva Azərbaycanla Ermənistan arasında vasitəçi ola bilməz. Çünki "Rusiya Ukraynada bütün mühüm prinsipləri tapdalayıb". Ona görə də nizamlamada 2022-ci ilin Praqa prinsipi əsas götürülməlidir.

Şübhəsiz ki, fransız nazirin bu cür fikir bildirməsi son günlər Kremlin sülh vasitəçiliyi fonundakı artan aktivliyini heçə endirməyə hesablanıb. Görünür, o, İrəvana məhz bu məqsədlə gəlib. Gəlib ki, Ermənistanın tutduğu yolda hansısa sapmalar olmasın. Digər tərəfdən, Sejurnye Parisin Azərbaycan və Ermənistan arasında başlanmış sərhədlərin delimitasiyası və demarkasiyası prosesini asanlaşdırdığını iddia edir. Görəsən, nazir bu fikri hansı ağılla işlədir? Axı sözügedən prosesdə Fransanın zərrə qədər də rolu yoxdur və mövcud istiqamətdə başlıca müsbət məqam Bakı və İrəvan arasındakı birbaşa təmaslardır. Görəsən, Sejurnyenin "asanlaşdırma məntiqi" özündə nəyi ehtiva edir? Suala cavab tapmaq elə də çətin deyil.

Fransa həmişə sülh prosesində azacıq da olsa, nəzərə çarpan müsbət meyilləri sıradan çıxarıb. Diqqət yetirək, ölkənin XİN rəhbəri Praqa prosesindən danışır. O prosesdən ki, Ermənistan onun çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etmişdi. Bu, 2022-ci ilin oktyabrında olmuşdu. Praqa sammitindən heç iki həftə keçməmiş Fransa Prezidenti Emmanuel Makron Azərbaycanı işğalçılıqda, Rusiyanı isə müttəfiqi olan Ermənistanın maraqlarını satmaqda günahlandırmışdı. Bundan sonra Prezident İlham Əliyevlə baş nazir N.Paşinyan arasında dekabrda Brüsseldə keçirilməli olan növbəti görüş gerçəkləşməmişdi. Belə ki, Paşinyan görüşdə Makronun iştirakı ilə bağlı mütləq tələb səsləndirmişdi ki, bu, ölkəmiz tərəfindən qəbul edilməmişdi. Elə isə nazir Sejurnye nə haqla Praqa prosesindən danışır? Ölkəsinin həmin prosesi pozduğunu bilmirmi? Yaxşı bilir, amma, necə deyərlər, utanmasan, oynamağa nə var?

N.Paşinyan Praqada Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirdiyi halda, bir ilə yaxın müddətdə Ermənistanın qeyri-qanuni silahlı birləşmələri Qarabağda qaldılar. S.Sejurnyenin bundan da xəbəri var. Deməli, onun Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməli olduğunu, bunun ticarətin genişləndirilməsinə imkan yaradacağını söyləməsində yalnız bir məntiq var ki, onu da dilə gətirir. Nazir prosesin Ermənistanın çiçəklənməsinə yol açacağından danışır. "Ermənistan sülh istəyir, Fransa sülh istəyir, beynəlxalq ictimaiyyət də sülh istəyir", – deyən Sejurnyenin COP29-a evsahibliyi məsələsində Azərbaycanı sülhə məcbur qalan tərəf kimi göstərmək ritorikasından gəlinən qənaət həm də budur ki, sülh istəməyən yalnız Bakıdır. Əlbəttə, belə yanaşmanın özü, yumşaq desək, qərəzlidir, beynəlxalq ictimaiyyəti aldatmağı hədəf seçib .

S.Sejurnye, eyni zamanda, ona görə qərəzlidir ki, Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfindəki mülki müşahidə missiyasının işini, bir növ, ehkamlaşdırır. Halbuki, sözügedən təsisatın Azərbaycana qarşı kəşfiyyat məlumatları topladığı, Ermənistanın silahlı qüvvələrinin bölmələrinə ötürdüyü məlumdur. İkincilərin qoşunların təmas xəttində atəşkəsi mütəmadi şəkildə pozduqları da həmçinin...

Onu da qeyd edək ki, İrəvanda səfərdə olan Fransanın XİN rəhbəri hələ mətbuat konfransından əvvəl özünün "X" sosial şəbəkəsində bu fikirləri yazmışdı: "Fransa Ermənistanın yanındadır: o, tarixi tərəfdaşdır, dost ölkədir və bizim onun müstəqilliyinə, ərazi bütövlüyünə və sülh istəyinə dəstəyimiz sarsılmazdır. Əməkdaşlığımız güclüdür və biz onu daha da gücləndiririk. Ermənistanın dayanıqlığını təmin etmək üçün strateji infrastrukturun inkişafını dəstəkləyirik".

Sonda ümumiləşdirmə apararaq deyək ki, İrəvana səfəri zamanı qondarma "erməni soyqırımı" memorial kompleksini ziyarət etmiş S.Sejurnyenin destruktiv niyyətlərlə Ermənistana gəldiyi məlumdur. Paşinyan administrasiyasının əməli "fəaliyyəti" ilə qarşıdakı müddətə həmin "niyyətlərə" uyğun davranacağı şübhəsizdir. Bunu deməyə keçmişin təcrübəsi əsas verir. İndiyədək Fransa rəsmilərinin hamısının İrəvana səfəri Ermənistanın avantürizmini daha da gücləndirirb, ölkənin düşdüyü illüziya bataqlığındakı yerini möhkəmləndirib.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Paşinyan bir neçə oyunçunun “marionetka”sıdır”

## *Rusiyalı politoloq Ermənistan baş nazirini siyasi fırıldaqçılıqda ittiham edib*

**Ermənistan Azərbaycanla sülh müqaviləsini hansı formada imzalamağa hazırlaşır? Bakının irəli sürdüyü şərtlərin mətnində öz əksini tapmış tam sazişi, yoxsa “çərçivə sənədi” adlandırdığı, əsas məsələlərin sonrakı mərhələyə saxlamağa çalışdığı yarımçız müqaviləni?**

Bu suallar iki ölkə arasında münasibətlərin normallaşdırılmasına xidmət edəcək razılaşmanın preambulasını deyil, mahiyyətini təşkil edir. Belə təsəvvür yaranır ki, rəsmi İrəvanın sülh sazişinə sonuncu – 10-cu təkliflər paketini rəhbər tutaraq, onu optimal variant sayması Ermənistan baş nazirinin metodologiyada yanlışlığa yol verməsidir. Onun Qərbin və Şərqin müxtəlif dövlətlərinə səfərləri zamanı Azərbaycanla sülh müaqaviləsini özünə sərfəli variantda imzalamağa hazır olması barədə rəy yaratmağa çalışması Bakının müttəfiqi və dostu sayılmayan həmin ölkələri məmnun etmək məqsədi daşıyır. Paşinyanın həmin görüşlərdə təzadlı, bir-birinə tamamilə rəyini öyrənməsi, detalları dəqiqləşdirməsi üçün 2027-ci ilə qədər çalışacağını bəyan edib. Hayların baş nazirinin belə ucuz və primitiv diplomatik addımla sülh müqaviləsinin imzalanmasını ləngitmək məqsədi güddüyü kənar müşahidəçilərə də aydındır.

Rusiyalı politiloq müsahibəsində referendum mövzusundan danışarkən onu da bildirib ki, Ermənistan kimi balaca, azsaylı əhaliyə malik ölkədə hansısa dinləmələrin, müzakirələrin olduqca qısa müddətdə aparılması çox asandır. Məsələ ondadır ki, Paşinyan və onun tərəfdaşları birmənalı şəkildə Bakının tələb etdiyi referendum planının iflasa uğramasına çalışır. İrəvanın 70 ailəsinə və pularına toxunulmayacağına təminat istədiyini vurğulayann rusiyalı siyasi ekspert yerdə qalan məsələlərin Paşinyanı maraqlandırmadığını qeyd edib. Ona qarşı bəzi qabaqlayıcı tədbirlərin görülməsinin yetişdiyini də diqqətə çatdıtan politoloq sülh müqaviləsinin imzalanmasının vacibliyində danışıb. “Amma sülh müqaviləsinin Bakını təmin edəcək redaksiyada imzalanmasının əsas şərt olduğunu” da deməyi unutmayan siyasi icmalçı müharibədə məğlub olmuş tərəf kimi İrəvanın, üstəlik, öz şərtlərini irəli sürməsini qəbulolunmaz sayıb: “Bu, ümumiyyətlə, hüquqi nonsensdir”.

**Siyasi elmlər doktoru Tatyana Poloskovanın müsahibəsində toxunduğu erməni ictimai təşkilatların Rusiyada “5-ci kolon” yaratmaq məsələsinə münasibət bildirən politoloq Rasim Musabəyov** XQ-yə açıqlamasında Paşinyanın qərbpərəst düşərgənin Rusiyanın daxilinə





zidd bəyanatlar verməsi, fərqli mövqedən çıxışlar etməsi  bəzən danışdığının özünə də aydın olmamasından xəbər verir.

Ermənistan baş nazirinin təkcə sülh müqaviləsi ilə deyil, həmçinin Rusiya ilə münasibətlərə dair ikibaşlı açıqlamalarının orada da birmənalı qarşılanmadığı məlumdur. İrəvanın dezinformasiyaya söykənən riyakar diplomatik ritorikası hayların tarixini yaxşı bilən və ədalət hissini itirməyən rusiyalı siyasi ekspertləri də narahat etməyə başlayıb. Onlardan biri siyasi elmlər doktoru Tatyana Poloskovadır. O, mövzu ilə bağlı telekanallardan birinə müsahibəsində olduqca maraqlı nüanslara toxunub.

Nikol Paşinyanın açıqlamalarında kobud səhvlərə, təhriflərə yol verməsini onun, bir növ, altsaymer xəstəliyindən əziyyət çəkməsi ilə izah edən tanınmış politoloq bu məsələyə vaxtilə Diplomatik Akademiyada tələbə yoldaşı olmuş, hazırda Ermənistan Xarici İşlər Nazirliyində çalışan erməni dostunun daha dəqiq qiymət verdiyini açıqlayıb. Həmin erməni rusiyalı həmkarına öz millətinin ən xoşagəlməz cəhətinin lovğalıq olduğunu bildirib.

Ermənistan rəhbərliyinin son vaxtlar bütün diplomatik norma və protokol etiketlərini, eləcə də beynəlxalq norma və qaydaları kobud şəkildə pozduğunu və faktiki olaraq, xırda siyasi fırıldaqçılıqla məşğul olduğunu açıq mətnlə bildirən Poloskova hayların baş nazirinin konstitusiyaya dair referendumu 2027-ci ildə keçiriləcəyi ilə bağlı açıqlamasını qeyri-ciddi adlandırıb. Politoloq İrəvana xitabən “bəlkə bu səsverməni min il sonraya saxlayasınız?”– kimi ritorik sualını ünvanlayır.

Oxuculara xagtırladaq ki, Paşinyan yeni konstitusiyanı hazırlayacaq işçi qrupunun yaradıldığını və onun bu məsələyə erməni ictimaiyyətində maraqlı tərəflərin, qrupların, əhalinin bütün təbəqələrinin gün ərzində sülh sazişinin layihəsi üzərində baş sındırdığına diqqəti çəkən rusiyalı politoloq sonda özlərinə sərf edən müddəaları irəli sürməsini hüquqi nonsens sayıb: “İkitərəfli müqavilələr belə imzalanmır. Ya ortada İrəvanın tamam diplomatik səriştəsizliyi var, ya da çirkin bir oyun gedir. Paşinyan bu oyunda qərar verən tərəf deyil. Mən artıq bu qənaətə gəlməyə başlamışam ki, Ermənistan baş naziri “marionetkaya” çevrilib. Həm də eyni vaxtda bir neçə oyunçunun “marionetkası” rolunda çıxış edir. Özü heç nəyi həll etmək iqtidarında deyil. Bunun nəticəsi də  göz qabağındadır”. T.Poloskova İrəvanın yürütdüyü bu siyasəti erməni xalqına qarşı işləyəcəyinə əmin olduğunu deyib.

Müsahibəsində bizim üçün maraq kəsb edən daha bir məsələyə toxunan tanınmış icmalçı rusiyalı siyasi ekspertlər cameəsinin fəallaşmasının vacibliyindən danışıb. Bunu zərurətə çevirən səbəblərə toxunan Poloskova Rusiya KİV-də və müxtəlif yerli forumlarda ermənilərin tarixi saxtalaşdırmasının, Ermənistanın Cənubi Qafqazda təxribatçı siyasətinin ifşa olunmasına ciddi ehtiyac yarandığını deyib. O, bu zaman vurğunu Rusiyadakı bəzi erməni ictimai təşkilatlarının belə təxribatçı fəaliyyətlə məşğul olduğunu və bu fəaliyyətin gücləndiyinə yönəldib. Bu barədə əvvəllər də həyəcan təbili çaldığını, ermənilərin Rusiyada “beşinci kolon” formalaşdırmağa çalışdıqlarını qeyd edən politoloq bu təmayülün Moskvaya yaxşı heç nə vəd etmədiyi qənaətindədir.

Ermənilərin dominantlıq etdiyi Rusiya mediasında bəzi qüvvələri anti-Rusiya fəaliyyəti apardığını da açıqlayan T.Poloskova yenidən sülh müqaviləsi mövzusuna qayıdaraq, Paşinyanın ən müxtəlif bəhanələrlə bu sənədi imzalamaq istəmədiyini bildirib. Onun hazırda hakimiyyətdə qalmağa çalışdığını, kürsüdən düşəndən sonra isə özünə, təsir göstərmək iqtidarında olduğuna şübhə etdiyini vurğuladı: “Amma erməni diasporunun tərkibində Rusiyanın imperiyapərəst siyasətini dəstəkləyən qruplar var. Onlar digərləri ilə müqayisədə çoxluq təşkil edirlər. Bu qruplar nəinki Qərbi, Ukraynanı, hətta Nikol Paşinyanın hakimiyyətini də yıxıb-sürüyürlər. Marqarita Simonyan, Keosyan, Miqranyan, Balayan kimiləri Rusiya telekenallarında İrəvanın ünvanına etikadan kənar ifadələr işlədirlər. Bununla yanaşı, xeyli sayda erməni də var ki, onlar Qərbin Rusiyaya qarşı “müharibəsini” dəstəkləyirlər. Rusiyadan qaçıb gedən və Qərbdə Moskvaya qarşı fəal iş aparanlar da az deyil. Belələri konkret olaraq, Kremlin siyasətinə qarşı çıxışlar edirlər. Əslində, bu, ənənəvi erməni siyasətidir ki, hər yerdə olsunlar. Onlar, bir qayda olaraq, özlərini Rusiyanın tərəfdarları kimi, – amma onun əlehdarları güclü çıxanda –həm də Moskvaya qarşı mübarizə aparır və hər iki cəbhədə Ermənistana dəstək axtarırlar. Paşinyan hakimiyyətinin Qərbdən real dəstək aldığı indiki məqamda xaricdəki erməni qruplaşmaları anti-Rusiya çıxışlarını daha da kəskinləşdiriblər”.

İrəvanın bu ikibaşlı oyununun Moskva üçün hər hansı problem yaratmayacağını düşünən politoloq ermənilərin Rusiyanın daxilində hökumətə qarşı “beşinci kolon” yaratmaları üçün imkanlarının və cürətlərinin olmadığını da bildirdi.

**ARAYIŞ:** Ermənistandan kənarda etnik ermənilərin ən çox yaşadığı ölkə Rusiyadır. 2018-ci ilin statistikasına əsasən, Rusiyada 2,5 milyon erməni yaşayır. Onlar say etibarilə Krasnodar diyarı (274.566 nəfər), Stavropol diyarı (149.249 nəfər), Moskva şəhəri (124.425 nəfər) və Rostov vilayətində (109.994 nəfər) üstünlük təşkil edirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Hayastan rəhbərinin riyakar açıqlaması

**Ermənistan baş naziri Nikol Paşinyan Tbilisidə gürcüstanlı həmkarı İrakli Kobaxidze ilə birgə keçirdiyi brifinqdə deyib ki, Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh sazişindən Gürcüstan, Türkiyə və İran da bərabər şəkildə faydalanacaq.**



Paşinyanın sözlərinə görə, Cənubi Qafqazda, həqiqətən də münaqişə səhifəsini bağlamaq və regionda möhkəm sülhün bərqərar olması üçün tarixi imkan var. O, qeyd edib ki, Ermənistan və Azərbaycan sülh sazişinin təxminən 80 faizini razılaşdıra biliblər: “Biz Azərbaycana sənəd layihəsinin razılaşdırılmış müddəalarını imzalamağı, diplomatik əlaqələr qurmağı və yaxın vaxtlarda müzakirələri davam etdirməyi təklif etdik”.

“Gürcüstan Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini alqışlayır və regionda sülh və sabitliyin bərqərar olmasında üzərinə düşən vəzifəni yerinə yetirməyə hazırdır”. Gürcüstan mətbuatının yazdığına görə, bunu ölkənin Baş naziri İrakli Kobaxidze Tbilisidə erməni həmkarı ilə birgə keçirdiyi brifinqdə deyib. “Gürcüstan Cənubi Qafqazda sabitliyi və sülh şəraitində birgə yaşayışı dəstəkləyir. Tbilisi, həmçinin İrəvan və Bakı arasında sülh prosesini də alqışlayır”, – deyə Gürcüstanın baş naziri bildirib.

Qeyd edək ki, Azərbaycan tərəfi sülh sazişinin Ermənistanla razılaşdırılmamış 20 faizində çox vacib müddəaların yer aldığını və onlar yerinə yetirilmədən müqavilənin imzalanmasının mümkün olmadığını açıqlayıb.

***XQ***

# Qərbin boğazında qalan “kal armud”

## *Yaxud Azərbaycana qarşı total hücumun görünməyən tərəfi*

**“Kollektiv Qərb” qarşıdurmanı o həddə çatdırıb ki, Azərbaycana qarşı ağıla sığan və sığmayan bütün vasitələri dövriyyəyə buraxıb. Bu “siyasi kart” ermənipərəst Qərb tərəfindən müsəlman ölkələrinə, son vaxtlar isə Azərbaycana qarşı mütəmadi olaraq istifadə edilir. Söhbət hadisə və faktlara ikili standartın, qərəzli yanaşmanın kriteriyasına çevrilmiş İslamofobiyadan gedir.**




Hər şey keçən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən sonra başladı. ABŞ və Qərbi Avropa postsovet coğrafiyasında yaranan müstəqil respublikalara, xüsusilə, İslam dininə etiqad edən xalqların yeni, suveren dövlətlərinə təzyiq vasitəsi kimi məhz İslamofobiyanı arsenalına daxil etdi. Bundan hamıdan çox əziyyət çəkən müsəlman ölkəsi Azərbaycandır. Bu barədə əvvəllər yazmışdıq.

Mövzuya qayıtmağımızın səbəbi xaricdəki erməni lobbisinin və diasporunun maliyyə dəstəyi göstərdiyi və İslamofobiyanı əllərinə bayrağa çevirmiş anti-Azərbayvan “çete”nin son vaxtlar bütün “qırmızı xətləri” keçməsidir. 30 il bundan əvvəl dünyanın aparıcı xristian dövlətləri Ermənistanın Azərbaycana qarşı işğalçı-xəyanətkar siyasətini nəinki sükutla qarşıladılar, əksinə, ona hərtərəfli yardım göstərdilər. Əvvəlcə bu məkrli siyasətin “səlibçi” zehniyyətin məhsulu olduğuna inanmaq istəmədik. Amma ötən müddət ərzində nə ATƏT-in Minsk qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransanın, nə də Qərbin digər xristian dövlətlərinin dilindən işğalçını qınayan sözlər eşitdik. Bəs, bunun əvəzində nə gördük? Həmin xristian düşərgə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılmasını tələb edən dörd qətnaməsindən, heç olmasa, birinin yerinə yetirilməsini tələb etmədi. İndi nə dəyişib ki? Dəyişən odur ki, ABŞ və Fransa başda olmaqla “kollektiv Qərb” Azərbaycana qarşı “səlib yürüşü”nü gizli deyil, açıq müstəvidə davam etdirir. Avropanın sağçıların ağalıq etdiyi bəzi ölkələrində bu “yürüş”ə dezinformasiya ilə beyinləri kirlənmiş kütləni də qoşurlar...




ABŞ Dövlət Departamenti, Fransa Senatı və Avropa Parlamenti bir-birinin ardınca Azərbaycan əleyhinə beynəlxalq hüquq və siyasi məntiqlə bir araya sığmayan qətnamə və bəyanatlar qəbul edirlər. Digər cəbhədə erməni diasporunun səxavətli maliyyə yardımları sayəsində ictimai təşkilatlar, satılmış ekspert və hüquqşünaslar üstümüzə ayaq açırlar. Total hücumun iştirakçıları əllərindəki özlərinin qondardıqları silahdan – İslamofobiyadan məharətlə yararlanırlar. Əsl niyyətləri  nə imiş? Azərbaycan ABŞ və Fransanın razılığı olmadan öz ərazilərinin işğalına son qoyub, suverenliyini tam bərpa edib. Onlardan ötrü bu reallığı həzm etməyə mane olan “kal armuda” çevrilib.

Görünən odur ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra regionda yaranmış yeni qüvvələr balansı ölkəmizdə daxili siyasi sabitliyi pozmaq cəhdlərini davam etdirən Qərbin planlarını alt-üst edib. USAID, NED, NDİ bu sahədə xüsusilə fərqləniblər. Xüsusilə, ABŞ kəşfiyyat orqanları tərəfindən yaradılan NED-in əsas məqsədi “demokratiya”nı təşviq etmək bəhanəsi ilə müsəlman dövlətlərində idarə olunan xaos yaratmaq idi.

Diqqətli oxucular xatırlaya bilərlər: vaxtilə mətbuatda NED-in Azərbaycana qarşı təxribat xarakterli fəaliyyətini maliyyələşdirməkdən ötrü xüsusi proqram hazırladığı barədə məlumatlar dərc edilmişdi. Daha sonra bunun təsdiqi kimi, “WikiLeaks” çap elədiyi hesabatında NED-in Qərbin yönəltdiyi, Azərbaycanın bir çox QHT-sinin hansı istiqamətlərdə hərəkət etməli olduqları göstərilirdi. Hesabatda qeyd olunurdu ki fond Azərbaycanda, guya, “korrupsiya və insan hüquqlarının pozulması ilə bağlı” məlumat və hesabatların hazırlanması və yayılmasına 75 min dollardan çox vəsait ayırıb. “Beşinci kolon” öz işində idi. Amma Qərbin agentura şəbəkəsi funksiyasını yerinə yetirən QHT-lərin ölkədən çıxarılması, eləcə də şübhəli qrantların alınmasına nəzarətin xeyli güclənməsi Qərbin Azərbaycandakı “beşinci kolon”unu oyundankənar vəziyyətdə qoydu. İntəhası, Qərb Azərbaycanın daxili işlərinə qarışmaq üçün yeni imkanlar, qurumlar  və şəxslər axtarışını dayandırmaq fikrində deyil.

Burada qeyd etmək yerinə düşər ki, 2022-ci ilin fevralında Azərbaycan Prezident İlham Əliyev gənclərlə görüşündə rəngli inqilablar, iğtişaşlar, dövlət çevrilişləri təşkil etmək cəhdləri ilə bağlı potensial təhlükə və çağırışlardan, xaosdan, Azərbaycan gənclərinin bu işə cəlb olunması təhlükəsindən ətraflı danışmışdı. Dövlətimizin başçısı dağıdıcı, inqilabi proseslərin yaranması üçün heç bir ilkin şərt olmadığını bəyan edərək, xarici qüvvələrin Azərbaycana müdaxilə cəhdlərinin hələ də davam etdiyini bildirmişdi.

Daha bir vacib nüansı qeyd etməmək mümkün deyil. AŞPA-nın destruktiv siyasəti də Qərbin Azərbaycana qarşı ikiüzlü siyasətinin məntiqinə tam uyğundur.  Eyni mərkəzdən idarə olunan AŞPA-da formalaşan dözülməz dini və irqi ayrı-seçkilik, Azərbaycanofobiya, Türkiyəfobiya və İslamofobiya atmosferinə görə, rəsmi Bakı bu ilin yanvarında bu qurumla əməkdaşlığı dondurub.

Bu təhlükəli tendensiya AŞPA-nın Azərbaycana qarşı ikili standartlarında özünü aşkar surətdə büruzə verdi. Saxta və qondarma iddiaların yer aldığı bəyanatlarında AŞPA bu çərçivədə əməkdaşlığa və dialoqa mühüm töhfələr verən Azərbaycana qapısını bağlamaq yolunu tutub. Nəticədə Bakı AŞPA-nın Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini təsdiqləməmək qərarına sərt cavab verdi: “Əgər bizi orada görmək istəmirsinizsə, onda siz bizə dünəndən lazım deyilsiniz!”.

Əslində, AŞPA-ya başucalığı gətirməyəcək bu qərar Avropanın “demokratik təsisatları” deyilən “səlibçi” qurumun Qərbdən asılı olmayaraq müstəqil siyasət yürüdən müsəlman Azərbaycanın daxili işlərinə qarışmağın təzahürüdür.

İslamofobiyaya qarşı ən effektli mübarizəni İslam dünyasının birliyi qoya bilər. Məhz bunun sayəsində son nəticədə qondarma silah bumeranq effekti ilə Qərbin özünə qayıdacaq və zərənini də onun özü çəkməli olacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Moskvanın ikibaşlı oyunu

**Rusiya Baş nazirinin müavini Aleksey Overçukun başçılıq etdiyi nümayəndə heyəti ötən həftə, daha doğrusu, sentyabrın 13-14-də Ermənistanda işgüzar səfərdə olub. Rusiya Xarici işlər nazirinin müavini Mixail Qaluzinin, "Rusiya Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti direktorunun müavini Vyaçeslav Pavlovskinin, onun törəmə müəssisəsi olan "Cənubi Qafqaz Dəmir Yolları" QSC-nin baş direktoru Aleksey Melnikovun daxil olduğu və Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin müşayiət etdiyi nümayəndə heyətinin üzvləri səfərin ilk günü baş nazir Nikol Paşinyanla görüşüblər. Görüşlə bağlı Ermənistan hökumətinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, N.Paşinyan və A.Overçuk Ermənistanla Rusiya arasında ikitərəfli münasibətlərin gündəliyi ilə bağlı məsələləri müzakirə ediblər. Görüşdə N.Paşinyan və A.Overçuk Avrasiya İqtisadi İttifaqı çərçivəsində əməkdaşlıqla bağlı mövzulara da toxunublar.**

Elə həmin gün Rusiya baş nazirinin müavini ermənistanlı həmkarı Mher Qriqoryanla bir araya gəlib. Onların görüşü 5 saat davam edib və bu görüşdə ikitərəfli gündəm ətraflı müzakirə olunub.

Səfərin sonuncu günü – sentyabrın 14-də nümayəndə heyəti 2024-cü ilin may ayında daşqınlardan zərər çəkmiş Lori vilayətinə yollanıb. A.Overçuk Axtala stansiyasında Cənubi Qafqaz dəmir yolunun təbii fəlakətdən sonra bərpa edilmiş hissələrinə baxış keçirib. Yeri gəlmişkən, qeyd edək ki, may ayının sonunda yağan güclü yağışlar nəticəsində Lori vilayətində Debed və Aqstev çayları məcrasından çıxıb. Nəticədə 3 nəfər ölüb, yüzlərlə sakinin evi su altında qalıb, həmçinin Gürcüstana gedən dövlətlərarası yol bağlanıb. Bu, Ermənistanı şimal dövlətləri ilə birləşdirən yeganə dəmir yoludur. Cənubi Qafqaz dəmir yolunun Ayrum-Sanain hissəsində də relslərin zədələnməsi səbəbindən qatarların hərəkəti dayandırılıb.

Burada jurnalistlərə açıqlama verən A.Overçuk əvvəlcə ermənistanlı həmkarı ilə görüşünün yekunlarını qiymətləndirib. Onun sözlərinə görə, M.Qriqoryanla görüşün müddəti, yəni 5 saat davam etməsi göstərir ki, tərəflərin birgə işi çoxdur: "Nəqliyyat kommunikasiyaları və qarşılıqlı ticarət, humanitar əməkdaşlıq, turizm, aviasiya məsələləri nəzərdən keçirildi".

Rusiya hökuməti sədrinin müavini xatırladıb ki, 2023-cü ildə Ermənistana 1 milyona yaxın rusiyalı turist gəlib və bu istiqamətə ruslar arasında tələbat böyükdür: "Bizim insanlarımız bura gəlməyi sevir, burada həmişə erməni xalqının dostluğunu və hörmətini hiss edir, ona görə də biz ölkələrimiz arasında bu əlaqələri gücləndirmək üçün mümkün olan hər şeyi edəcəyik".

O, baş nazir N.Paşinyanla görüşünü əhatəli adlandırıb və söhbətdən məmnun qaldığını bildirib: "Biz Ermənistan iqtisadiyyatının necə böyüdüyünü və inkişaf etdiyini (?), Avrasiya İqtisadi İttifaqında ən yaxşı ümumi daxili məhsul göstəricilərini nümayiş etdirdiyini görürük. Hamımız başa düşürük ki, bu cür iqtisadi uğurlar (?) ilk növbədə Avrasiya İqtisadi İttifaqında ilə



inteqrasiya əlaqələri sayəsində əldə edilir".

Rusiya baş nazirinin müavini onu da bildirib ki, Ermənistan ittifaq çərçivəsində fəal pozitiv rol oynayır. Paşinyanla görüşdə Ermənistanın Avrasiya inteqrasiyasında iştirakı məsələsi də müzakirə olunub.

Qeyd edək ki, son vaxtlar Ermənistanla Rusiya arasında münasibətlər nəzərəçarpacaq dərəcədə soyuyub. Rəsmi İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzrə tərəfdaşlarını respublika qarşısında öhdəliklərini yerinə yetirməməkdə suçlayır. Moskva isə bu iddiaları əsassız hesab edir. Ekspertlər də bir müddətdir Ermənistan–Rusiya münasibətlərində nəzərəçarpacaq soyuqlaşmadan danışırlar. Ancaq Rusiya baş nazirinin müavini real vəziyyətlə media resurslarının tətbiq etdikləri informasiya gündəmi arasında fərq qoymağa çağırıb.

"Sputnik Ermənistan" agentliyinin Ermənistan–Rusiya münasibətlərindəki çətinliklərlə bağlı sualını cavablandıran A.Overçukun sözlərinə görə, media fonu çox vaxt neqativ, real mənzərə isə fərqli olur. "Real dünya var. Necə ki, biz bu gün yenicə təmir olunmuş əsl dəmir yolu ilə getdik və real işi gördük. İki ölkə arasında ticarət dövriyyəsində real artım var ki, bu da ölkələrimizin əlaqələrinin möhkəmlənməsindən xəbər verir. Ermənistan Avrasiya İqtisadi İttifaqında fəal iştirakını davam etdirir. Bir sözlə, reallıqla mediada yayımlananları ayırd etməyi bacarmaq lazımdır, çünki informasiya gündəmi çox vaxt reallığı əks etdirmir" – deyə A.Overçuk vurğulayıb.

Qeyd edək ki, A.Overçuk Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında 2021-ci il yanvarın 11-də 44 günlük Vətən müharibəsindən sonra Moskvada ilk dəfə keçirilən görüşdən sonra qəbul edilmiş üçtərəfli bəyanat əsasında yaradılan işçi qrupunun Rusiya tərəfdən həmsədridir. A.Overçuk 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndinin, yəni regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasının reallaşdırılması məqsədilə Rusiya tez-tez həm Bakıya, həm də İrəvana səfərlər edir. Amma son zamanlar işçi qrupunun fəaliyyətində durğunluq yaranıb. Xeyli vaxtdır ki, onun iclasları keçirilmir.

Bu baxımdan A.Overçuk jurnalistlərlə söhbətində Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması məsələsini də şərh edib. O, açıq şəkildə bildirib ki, yolların açılması yalnız üç dövlətin (Azərbaycan, Rusiya və Ermənistan) liderlərinin əldə etdiyi və 2020-ci il 10 noyabr tarixli Bəyanatda öz əksini tapmış razılaşmalar çərçivəsində mümkündür. Onun sözlərinə görə, Rusiya hər zaman bu prosesə qoşulmağa və Ermənistanın suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyası prinsiplərindən çıxış edərək burada kömək etməyə hazırdır.

Yeri gəlmişkən, Overçuk Rusiya və Ermənistan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın sentyabrın 14-də İrəvanda keçirilən iclasında bildirib ki, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 14-16 milyard dollara çata bilər. Yəni, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2022-ci ildəki 2,6 milyard dollara müqayisədə 6 dəfə artacaq. İxrac əməliyyatları isə 2023-cü ildə 841 milyon dollardan 3,4 milyard dollara yüksəlib. Onun sözlərinə görə, ölkələr arasında iqtisadi əməkdaşlıq dinamik inkişaf edir və bütün sahələri əhatə edir: "2023-cü ildə Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 55,8 faiz artaraq 7,4 milyard dollara çatıb. 2024-cü ilin ilk altı ayında bu rəqəm artıq 8,4 milyard dolları keçib. Müqayisə üçün qeyd etmək istərdim ki, 2020-ci ildə ticarət dövriyyəsi cəmi 2,3 milyard dollar təşkil edib. Hazırkı rəqəmlər qarşılıqlı ticarətin sürətli artımını göstərir".

Ancaq Rusiya hökuməti sədrinin müavini nədənsə, qarşılıqlı ticarət dövriyyəsində qeydə alınan artımın haradan qaynaqlandığını açıqlamayıb. Biz A.Overçukun tez-tez yararlandığı "real" sözünü burada istifadə edərək qeyd etmək istərdik ki, Rusiya Federasiyasının real iqtisadiyyatdan məhrum bir ölkə ilə ticarət dövriyyəsinin Cənubi Qafqazın ən böyük iqtisadiyyatına malik Azərbaycanla ticarət dövriyyəsindən az qala üç dəfə çox olmasına təəccüblənməyə dəyməz. Bu rəqəmlər Ermənistanın beynəlxalq sanksiyalardan yan keçərək Rusiya ilə təkrar ixrac (reeksport) əməliyyatlarını davam etdirdiyini əyani şəkildə göstərir. Amma İrəvan üzərində nəzarəti Moskvadan alaraq öz əlində cəmləşdirmək istəyən kollektiv Qərb onun qadağalarına qətiyyən əhəmiyyət verməyən ələltisinin bu cür iqtisadi "zarafatlarına" israrla göz yumur.

**Mövzu üzrə fikirlərini öyrəndiyimiz "Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, siyasi şərhçi İlqar Vəlizadə bildirdi ki,** əslində, Rusiya–Ermənistan münasi-



bətlərində gərginlik var və bu, açıq şəkildə sezilir. Onun sözlərinə görə, iki ölkənin rəsmi şəxslərinin açıqlamalarında bunu aydın görmək olar. Yəni, münasibətlərin hər halda siyasi səviyyədə gərgin olduğu heç kəs üçün sirr deyil: "Bu, təkcə media resurslarının, belə deyək, məhsulu deyil. Hər iki tərəfdən rəsmi şəxslərin verdikləri açıqlamalar nəticəsində bu qənaətə gəlmək olur".

İki ölkənin iqtisadi əlaqələrinə gəldikdə isə İ.Vəlizadə qeyd etdi ki, bu əlaqələr həqiqətən də inkişaf edir. Rusiya və Ermənistan arasında ticarət dövriyyəsinin həcmi artır. Eyni zamanda, Ermənistanın Rusiya iqtisadiyyatına bağlılığı da möhkəmlənir: "Baxmayaraq ki, Ermənistan rəsmiləri Qərb ölkələri ilə əlaqələri daha sıxlaşdırmaq niyyətində olduqlarını bəyan edirlər. Bu istiqamətdə əməli addımlar da atılır. Amma biz reallıqda əks mənzərə görürük. Məhz elə Rusiya ilə iqtisadi əməkdaşlıq sürətlə genişlənir, artan templə davam edir. Bu gün Rusiya ilə ticarət dövriyyəsinin həcmi Ermənistanın ümumi ticarət dövriyyəsinin təxminən yarısını təşkil edir. İxracının əsas hissəsi Rusiyaya gedir və sair. Bu məsələdə Overçukun sözləri ilə razılaşmaq olar. Ermənistan mediasına baxdıqda düşünmək olar ki, rəsmi İrəvan bütün iqtisadi əməkdaşlıq, investisiya layihələrini sanki Qərblə həyata keçirir. Amma investisiyaların həcminə, onların mahiyyətinə baxdıqda görə bilərik ki, heç də böyük əhəmiyyətə malik layihələr deyil. Onların reallaşması istiqamətində də hələlik real addımlar atılmayıb".

Müsahibimiz qeyd etdi ki, regionda nəqliyyat kommunikasiyalarının açılması həm ikitərəfli, həm də regional gündəmin əsas məsələlərindən biridir. Bu məsələ hər iki tərəf üçün çox böyük əhəmiyyət kəsb edir: "Əlbəttə, Rusiya çox çalışır ki, Azərbaycan və Ermənistan ərazisində nəqliyyat kommunikasiyaları açılsın və iki ölkədən keçməklə Türkiyə ilə birbaşa əlaqə yaradılsın. Hazırda Ermənistanda fəaliyyət göstərən "Rusiya Dəmir Yolları" QSC-nin törəmə müəssisəsi olan "Cənubi Qafqaz Dəmir Yolları" kommunikasiyaların açılmasından bəhrələnən əsas tərəf olsun".

İ.Vəlizadə onu da bildirdi ki, Rusiya bu məsələdə Ermənistanın üçtərəfli bəyanatdan fərqli mövqeyini rədd edir. Moskva regionda kommunikasiyaların məhz üçtərəfli bəyanatda göstərildiyi şəkildə açılmasında israrlıdır. Bu zaman nəinki "Rusiya Dəmir Yolları" QSC kommunikasiyaların istismarında fəal şəkildə iştirak edəcək, eyni zamanda, yolun Ermənistan hissəsində təhlükəsizliyin təminatçısı da Rusiya sərhədçiləri olacaqlar. Beləliklə, Rusiya kommunikasiyaların açılmasında əhəmiyyətli rol oynamağa çalışır. Əks yanaşmalar şimal qonşumuzu qane etmir. Moskva başqa cür yanaşmaları öz maraqlarına zidd sayır. Overçukun səfərində əsas məqsəd də kommunikasiyaların açılmasına, üçtərəfli komissiyanın işinin bərpasına nail olmaq idi. Biz bir neçə gündən, yaxud həftədən sonra səfərin nə qədər səmərəli olduğunu görə biləcəyik.

*Səxavət HƏMİD*
**XQ**

## Günün sualı

**Palma yağı barədə oxucularımızın sorğusuna cavab olaraq mənbələrin və mütəxəssislərin köməyilə cari bir araşdırma apardıq. Məlum oldu ki, palma ağacının bir növü olan "Elaeis guineensis"in meyvələrindən istehsal olunan yağ ucuz olması səbəbindən müasir dövrün ən çox istifadə olunan bitki yağlarından biridir. Beynəlxalq ətraf mühit təşkilatı "Greenpeace" market rəflərində satılan qablaşdırılmış məhsulların tərkibinin yarısının palma yağı olduğunu açıqlayıb. Bildirilib ki, şokoladlardan "çips"lərə qədər bir çox işlənmiş qidanın tərkibində palma yağı var.**

# Palma yağı nədir və onun sağlamlığa təsiri necədir?

Dünyada yağ istehsalı üçün ən səmərəli bitki olduğu qeyd edilən bu palma növünün 90 faizi İndoneziya və Malayziyadakı əkin sahələrində yetişdirilir. Palma ağacları, kökləri Qərbi Afrikaya aid olsa da, yağıntının miqdarı və temperaturun yüksək olduğu Asiya, Şimali və Cənubi Amerikanın müxtəlif bölgələrində də becərilir. **Palma yağının istehsalı, istehlakı və zərərləri barədə Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin baş müəllimi, Dünya Tibbi Hüquq Assosasiyasının üzvü Aida Bəndəliyeva** bu açıqlamasının davamında bildirdi ki, Birləşmiş Millətlər Dünya Təbiəti Qoruma Fonduna görə, bu yağ qidalar, təmizləyicilər və sənaye məhsullarının əksəriyyətində istifadə olunur. Eyni zamanda, yemək yağları, marqarinlər, dondurma, hazır yeməklər və şirniyyatlara palma yağı qatılır. Şokolad, pizza xəmiri, peçenye və keks, paketlənmiş çörək bu məhsullardan bəziləridir. Ayrıca, yuyucu vasitələr, maye və adi sabun və şampunların əksəriyyəti, dodaq boyası, ağardıcılar, sənaye yağlayıcıları və bioloji yanacaqların tərkibində də bu yağ mövcuddur.

**– Sağlam qidalanmanın tələbləri baxımından palma yağının insan üçün zərərləri barədə nə deyərdiniz?**

– Palma yağı ilə bağlı çoxlu mənfi fikirlər mövcuddur və bu yağ məhsulu, eyni zamanda "palmiye yağı" olaraq da tanınır. Palma yağı zərərləri ilə diqqət çəkən bir qidadır. Mütəxəssislər bununla bağlı həmişə xəbərdarlıq edirlər. Bu, xüsusilə, sağlam qidalanmağa diqqət edən fərdlərin çəkinməyə çalışdığı bir yağdır. Palma yağı yüksək kalorili və doymuş yağ xüsusiyyəti ilə seçilir.

Palma yağının zərərləri ilə bağlı bir çox məqama toxunmaq mümkündür. Qızartma və sadə bişirmə yağı olaraq istifadə olunan bu məhsul yüksək temperaturda rafinə edilir. Çünki yağın qırmızı rəngindən ayrılması və qoxusunun azalması üçün yüksək istilikdə rafinə edilməlidir. Lakin bu üsulla istehsal olunan yağlar insan sağlamlığı üçün uyğun deyil. Bu səbəbdən onun sağlamlığa zərər verməsi ehtimalı böyükdür. Palma yağının zərərli xüsusiyyətləri bunlardır:

– Yüksək istilikdə istehsal edildiyindən ürək tutmalarına və infarkta səbəb ola bilər;

– İnsanda qan təzyiqi və xolesterol balansının pozulmasını yaratması ehtimal olunur;

– İstehsal üçün bir çox ağacın kəsilməsinə səbəb olaraq ekosistem balansını da pozur;

– Kalori və yağ miqdarı yüksək olduğu üçün insanda çəki problemləri yaradır;

– Çətin həzm olunduğundan bağırsaq xəstəlikləri yaratması ehtimalı da böyükdür.

– Yağ süni yollarla yox, canlı mənbədən alınır. Təbii məhsul hesab edilən yağ niyə bu qədər zərərlidir?

– Palma yağının zərərləri araşdırmalar nəticəsində müəyyən edilmişdir. Buna baxmayaraq, istehlakçılar bu yağı qızartma və adi yeməklərdə istifadə etməyə davam edir. Palma yağının zərərli olmasının səbəbləri arasında istehsal üsulu ön yerdədir. Adətən hazır qida məhsullarında istifadə edilən bu yağın riskli olmasının ən böyük səbəbi yüksək istilikdə istehsal olunmasıdır. Məhsul birbaşa ürəyə, damar və hüceyrələrə təsir etdiyi üçün ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Bu yağ insan sağlamlığına zərər verməklə yanaşı, eyni zamanda, təbii mühitdəki canlıları da təhlükə altına alır.

Hazırda bir çox ölkələrdə palma yağının zərərləri müxtəlif mütəxəssislər tərəfindən araşdırılmaqda davam edir.



Avropa Qida Təhlükəsizliyi Təşkilatının araşdırmalarında bu trans yağ məhsulunun kanserogen təsirinin olduğu bildirilir. Eyni zamanda, tərkibində olan bəzi maddələrin sağlamlığa zərərli təsirləri aşkarlandığı üçün onu istehlak etməkdən çəkinməyin zəruriliyi qeyd edilir.

Palma yağının zərərləri yalnız kanserogen olması ilə məhdudlaşmır. Bu yağın istehsalı və ondan istifadə həqiqətən də bəzi ölkələrdə qadağan edilmişdir. Məhsulun təhlükəli nəticələrindən biri də çəki riskini artırmasıdır. Tərkibində çəki artımına səbəb olan palmitrik asid var.

"Clinical Nutrition American Journal"ının bu mövzu ilə bağlı dərc etdiyi araşdırmada bildirilir ki, sağlam insanlar üzərində palmitrik asid baxımından zəngin qidalanma proqramı sınanmışdır. Nəticədə palma yağının tərkibindəki palmitrik asidin çəki və insulin müqavimətini artıra biləcəyi müəyyən edilmişdir.

Palma yağının diqqət çəkən zərərlərindən biri də ürək xəstəliyi riskini artırmasıdır. Palma nüvəsi hər nə qədər xolesterol ehtiva etməsə də, tərkibindəki doymuş yağ damarları tıxayır. Damarlar arasında toplanan çöküntü, bir müddət sonra ürək tutmaları və ya xronik ürək xəstəliklərinə səbəb olur. Bu səbəbdən işlənmiş qidalar və hətta süd məhsulları istehlak edilərkən diqqətli olmaq lazımdır. Doymuş yağ və yüksək kalorili olması səbəbi ilə xolesterol səviyyəsini artırır və bu da kardiyovaskulyar xəstəlikləri yaranmasına səbəb olur. Buna görə də, mütəxəssislərin fikrincə, palma yağının orqanizmdə təsir etdiyi ilk orqan və toxumalar ürək və damarlardır. Yağ, həmçinin iflic riskinə də səbəb ola bilər. Bunun da öz növbəsində, sinir sistemi üzərində də ciddi təsirlərə yol açması mümkündür. Həmçinin həzm sisteminə təsir etdiyi üçün mədə və bağırsaq kimi vacib orqanlara da zərər verə bilər. Buna görə də, sağlam orqan funksiyasına sahib olmaq istəyənlərə istehlak edilməsi tövsiyə olunmur.

**– Təəssüf ki, palma yağına bəzən uşaq qidalarında da rast gəlinir.**

– Ana südünün kifayət etmədiyi hallarda hazırlanan bəzi uşaq yeməklərinin tərkibinə verilən palma yağı körpələr üçün üçün çox zərərlidir. Bu səbəbdən valideynlərin qida alarkən tərkibinə diqqət etmələri lazımdır. Mütəxəssislər körpələrə zərərli olan palma yağı ehtiva edən qidaların verilməməsi barədə xəbərdarlıq edir. Əgər həmin qida və ya südlər körpələrə verilərsə, qəbizlik və köp sancıları meydana gələr və uzun müddətli sağlamlıq problemlərinə səbəb ola bilər. Bu, xüsusilə, valideynlərin diqqət etməsi lazım olan bir mövzudur.

Aparılan nəzəri təhlillər zamanı əldə edilən nəticələr onu deməyə əsas verir ki, palma yağının istifadə edilməməsinin önəmi daim vurğulanmalıdır. Buna görə də zərərlərindən qaçmaq üçün işlətməmək daha önəmlidir.

**– Bəs hansı bitki yağları faydalı və zərərsizdir?**

– Zərərli olmayan alternativ yağ məhsullarından istifadə etmək olar. Palma yağına alternativ olan ən sağlam məhsul zeytun yağıdır. Təbii və işlənməmiş zeytun yağı yüksək antioksidant xüsusiyyətləri sayəsində keyfiyyətli bir istehlak təklif edir. Eyni zamanda, xolesterol səviyyəsini azaldır və ürək sağlamlığına müsbət təsir göstərir.

Onu da qeyd edək ki, palma yağı insan sağlamlığına zərər verməklə yanaşı, ətraf mühitə də olduqca zərərli bir yağ məhsuludur. İstehsal üçün palma ağaclarının kəsilməsi meşələrin azalmasına yol açır. Bu, ağacların arasında yaşayan canlıların yaşayış sahələrini də təhlükə altına alır.

Palma yağının zərərləri nə qədər çox olsa da, bu yağ günümüzdə istifadə üçün daha çox alınır. Bunun səbəbi palma yağının digər yağ məhsullarına nisbətən iqtisadi cəhətdən daha əlverişli olmasıdır. Lakin bu məhsulun satışının ucuz olmasına baxmayaraq, insan sağlamlığını təhlükəyə atdığı üçün elm adamları tərəfindən onun istifadə edilməməsi tövsiyə olunur.

*Müsahibəni hazırladı:*
*Zərifə HÜSEYNOVA*
**XQ**

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏR

1 sentyabr 2024-cü il

## Səsvermənin ÜMUMİ YEKUNLARINA DAİR Azərbaycan Respublİkası Mərkəzİ Seçkİ Komissiyasının Protokolu

**Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarına əsasən respublika üzrə səsvermənin ümumi yekunlarını müəyyən etmişdir:**

1 Seçici siyahılarına daxil edilmiş seçicilərin ümumi sayı

*Altı milyon dörd yüz otuz üç min yüz səksən dörd* — 6 433 184

2 Səsvermədə iştirak edən seçicilərin sayı *

*İki milyon üç yüz doxsan beş min beş yüz on* — 2 395 510

3. Dairə seçki komissiyalarının sayı

*Bir yüz iyirmi beş* — 125

4. Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı

*Bir yüz iyirmi beş* — 125

5. Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş dairə seçki komissiyaları protokollarının sayı

*Bir yüz iyirmi beş* — 125

6 Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki dairələrinin sayı

*Sıfır* — 0

7 Səsvermənin baş tutmadığı seçki dairələrinin sayı

*Sıfır* — 0

8. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı **

*Qırx altı* — 46

* Seçicilərin fəallığı [seçicilərin ümumi sayına (1) nisbətən faizlə] : 37.24%

** Siyahı əlavə edilir.

9. Deputat seçilmiş namizədlər (sayı və seçki dairələri üzrə siyahısı)

*Bir yüz iyirmi beş* — 125

| | |
|---|---|
| 1 saylı Şərur–Sədərək seçki dairəsi | ƏSGƏROV Ziyafət Abbas oğlu |
| 2 saylı Şərur–Kəngərli seçki dairəsi | NOVRUZOV Siyavuş Dünyamalı oğlu |
| 3 saylı Babək–Şahbuz–Kəngərli seçki dairəsi | MÖHBALIYEV Səttar Suliddin oğlu |
| 4 saylı Naxçıvan şəhər seçki dairəsi | İBRAHİMOV Eldar Rza oğlu |
| 5 saylı Babək–Naxçıvan–Culfa seçki dairəsi | HƏMZƏYEVA Ülviyyə Tapdıq qızı |
| 6 saylı Ordubad–Culfa seçki dairəsi | RƏHİMZADƏ Vüqar Gəncəli oğlu |
| 7 saylı Səbail seçki dairəsi | ARPADARAİ Nigar Cavid qızı |
| 8 saylı Binəqədi birinci seçki dairəsi | QULİYEV Azay Əjdər oğlu |
| 9 saylı Binəqədi ikinci seçki dairəsi | QAFAROV Kamaləddin Nəsrəddin oğlu |
| 10 saylı Binəqədi üçüncü seçki dairəsi | MUSAYEV Elşad Nəbi oğlu |
| 11 saylı Binəqədi–Qaradağ seçki dairəsi | XASAYEVA Səbinə Səməd qızı |
| 12 saylı Xəzər birinci seçki dairəsi | MƏMMƏDOV Soltan Teymur oğlu |
| 13 saylı Xəzər ikinci seçki dairəsi | PAŞAYEVA Gülşən Məmmədəli qızı |
| 14 saylı Xəzər–Pirallahı seçki dairəsi | ƏFƏNDİYEVA Günay Elçin qızı |
| 15 saylı Yasamal birinci seçki dairəsi | QULİYEV Ülvi Zahid oğlu |
| 16 saylı Yasamal ikinci seçki dairəsi | QƏDİRLİ Erkin Toğrul oğlu |
| 17 saylı Yasamal üçüncü seçki dairəsi | QƏHRƏMANOV Göydəniz İbrahim oğlu |
| 18 saylı Nərimanov–Nizami–Binəqədi seçki dairəsi | MUSABƏYOV Rasim Nəsrəddin oğlu |
| 19 saylı Nərimanov birinci seçki dairəsi | MƏMMƏDOV Hikmət Baba oğlu |
| 20 saylı Nərimanov ikinci seçki dairəsi | VƏLİYEV Samir Əhməd oğlu |
| 21 saylı Nəsimi–Binəqədi seçki dairəsi | İBRAHİMQIZI Məlahət İbrahim |
| 22 saylı Nəsimi–Yasamal seçki dairəsi | MOLLAZADƏ Asim Nazim oğlu |
| 23 saylı Nəsimi–Səbail seçki dairəsi | SƏMƏDZADƏ Ziyad Əliabbas oğlu |
| 24 saylı Nizami birinci seçki dairəsi | NURULLAYEVA Könül Oruc qızı |
| 25 saylı Nizami ikinci seçki dairəsi | ƏHMƏDOV Əli Cavad oğlu |
| 26 saylı Sabunçu birinci seçki dairəsi | MUSTAFA Fazil Qəzənfər oğlu |
| 27 saylı Sabunçu ikinci seçki dairəsi | ƏLİ–ZADƏ Arzuxan Baxşəli oğlu |
| 28 saylı Sabunçu üçüncü seçki dairəsi | QULİYEV Eldar Allahyar oğlu |
| 29 saylı Sabunçu dördüncü seçki dairəsi | ALLAHVERƏNOV Azər Kərim oğlu |
| 30 saylı Suraxanı birinci seçki dairəsi | FƏTƏLİYEVA Sevinc Həbib qızı |
| 31 saylı Suraxanı ikinci seçki dairəsi | MƏMMƏDOV Qaya Məmməd oğlu |
| 32 saylı Suraxanı üçüncü seçki dairəsi | HƏSƏNOVA Afət Əbil qızı |
| 33 saylı Xətai birinci seçki dairəsi | ORUC Zahid Məhərrəm oğlu |
| 34 saylı Xətai ikinci seçki dairəsi | ZABELİN Mixail Yuryeviç |
| 35 saylı Xətai üçüncü seçki dairəsi | VƏLİYEVA Pərvanə Bulut qızı |
| 36 saylı Xətai–Suraxanı seçki dairəsi | HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu |
| 37 saylı Qaradağ seçki dairəsi | HÜSEYNOV Aydın Nəsir oğlu |
| 38 saylı Gəncə birinci seçki dairəsi | HƏMZƏYEV Naqif Ələşrəf oğlu |
| 39 saylı Gəncə ikinci seçki dairəsi | KƏRİMZADƏ Pərvin Orxan qızı |
| 40 saylı Gəncə üçüncü seçki dairəsi | QULİYEV Musa İsa oğlu |
| 41 saylı Gəncə–Samux–Goranboy seçki dairəsi | CƏFƏROV Müşfiq Cəfər oğlu |
| 42 saylı Sumqayıt birinci seçki dairəsi | HÜSEYNOVA Hicran Kamran qızı |
| 43 saylı Sumqayıt ikinci seçki dairəsi | MİRKİŞİLİ Tahir Famil oğlu |
| 44 saylı Sumqayıt üçüncü seçki dairəsi | VƏLİYEVA Mehriban Hidayət qızı |
| 45 saylı Sumqayıt dördüncü seçki dairəsi | SALMANOVA Səbinə Qədir qızı |
| 46 saylı Sumqayıt beşinci seçki dairəsi | AKİMOVA Elnarə Seydulla qızı |
| 47 saylı Sumqayıt–Abşeron–Qaradağ seçki dairəsi | ŞÜKÜROV Zaur Ramiz oğlu |
| 48 saylı Abşeron birinci seçki dairəsi | MƏMMƏDOVA Nigar Fikrət qızı |
| 49 saylı Abşeron ikinci seçki dairəsi | NƏBİYEV Rizvan Novruz oğlu |
| 50 saylı Abşeron üçüncü seçki dairəsi | NAMAZOV Ramid Zakir oğlu |
| 51 saylı Şirvan seçki dairəsi | ƏSƏDOV Heydər Xanış oğlu |
| 52 saylı Yevlax seçki dairəsi | MƏMMƏDOV İlham Kazım oğlu |
| 53 saylı Yevlax–Mingəçevir seçki dairəsi | HÜSEYNLİ Əli Məhəmməd oğlu |
| 54 saylı Mingəçevir seçki dairəsi | MİRZƏZADƏ Aydın Böyükkişi oğlu |
| 55 saylı Siyəzən–Quba–Xızı seçki dairəsi | MƏMMƏDLİ Müşfiq Fazil oğlu |
| 56 saylı Şabran–Xaçmaz seçki dairəsi | SÜLEYMANLI Mahir Tahir oğlu |
| 57 saylı Xaçmaz şəhər seçki dairəsi | VƏLİYEV Ağalar İsrəfil oğlu |
| 58 saylı Xaçmaz kənd seçki dairəsi | MİKAYILOVA Sevil Əlirazı qızı |
| 59 saylı Quba seçki dairəsi | MƏHƏRRƏMZADƏ Əlibala Səttar oğlu |
| 60 saylı Quba–Qusar seçki dairəsi | RAFAİLOV Anatoliy Xaimoviç |
| 61 saylı Qusar seçki dairəsi | BADAMOV Azər Camal oğlu |
| 62 saylı Kürdəmir seçki dairəsi | AĞAZADƏ Əminə Həmid qızı |
| 63 saylı Hacıqabul–Kürdəmir seçki dairəsi | HÜSEYNOV Rafael Baba oğlu |
| 64 saylı Salyan seçki dairəsi | QURBANOV Sadiq Haqverdi oğlu |
| 65 saylı Salyan–Biləsuvar–Neftçala seçki dairəsi | AĞAMALI Günay Fəzail qızı |
| 66 saylı Saatlı seçki dairəsi | ƏLƏKBƏROV Əziz Yusif oğlu |
| 67 saylı Sabirabad seçki dairəsi | ƏMİRASLANOV Əhliman Tapdıq oğlu |
| 68 saylı Sabirabad–Şirvan seçki dairəsi | CƏFƏROV Kamal Xaqani oğlu |
| 69 saylı Biləsuvar seçki dairəsi | MƏHƏRRƏMOV Bəhruz Abdurrəhman oğlu |
| 70 saylı Neftçala seçki dairəsi | RÜSTƏMXANLI Tənzilə Yolçu qızı |
| 71 saylı Cəlilabad şəhər seçki dairəsi | HƏSƏNOV Malik Əvəz oğlu |
| 72 saylı Cəlilabad kənd seçki dairəsi | NƏSİROV Elman Xudam oğlu |
| 73 saylı Masallı–Cəlilabad seçki dairəsi | İBRAHİMLİ Fəzail Feyruz oğlu |
| 74 saylı Masallı seçki dairəsi | MƏMMƏDOV Məşhur Şahbaz oğlu |
| 75 saylı Yardımlı–Masallı seçki dairəsi | QASIMLI Musa Cəfər oğlu |
| 76 saylı Lənkəran–Masallı seçki dairəsi | PAŞAZADƏ Cavanşir Hümmət oğlu |
| 77 saylı Lənkəran şəhər seçki dairəsi | İSMAYILZADƏ Fariz Akif oğlu |
| 78 saylı Lənkəran kənd seçki dairəsi | İSGƏNDƏROV Anar Camal oğlu |
| 79 saylı Astara seçki dairəsi | MAHMUDOV Rəşad Məmmədqulu oğlu |
| 80 saylı Lerik–Astara seçki dairəsi | QAFAROV Vasif Vaqif oğlu |
| 81 saylı İmişli seçki dairəsi | NURULLAYEV Razi Qulaməli oğlu |
| 82 saylı İmişli–Saatlı seçki dairəsi | SALAHLI Səyyad Adil oğlu |
| 83 saylı Beyləqan seçki dairəsi | İSMAYILOV Şahin Əmir oğlu |
| 84 saylı Füzuli seçki dairəsi | BAYRAMOV Vüqar İbad oğlu |
| 85 saylı Füzuli–Ağcabədi seçki dairəsi | ABBASOV Aqil Məhəmməd oğlu |
| 86 saylı Ağcabədi seçki dairəsi | RZAYEV Tahir Musa oğlu |
| 87 saylı Qobustan–Şamaxı–İsmayıllı seçki dairəsi | SEYİDZADƏ Şahin Kamil oğlu |
| 88 saylı Şamaxı seçki dairəsi | CƏFƏROVA Tamam Şaməmməd qızı |
| 89 saylı İsmayıllı seçki dairəsi | ASLANOV Novruzəli Davud oğlu |
| 90 saylı Ağsu seçki dairəsi | MİRZƏBƏYLİ Elçin Əbdülrəhim oğlu |
| 91 saylı Göyçay seçki dairəsi | HACIYEV Sabir Kamal oğlu |
| 92 saylı Göyçay–Ağdaş seçki dairəsi | ƏFƏNDİYEV Məzahir Cavid oğlu |
| 93 saylı Ağdaş seçki dairəsi | ALIYEV Sahib Eyvaz oğlu |
| 94 saylı Ucar seçki dairəsi | HƏSƏN Ramil Sahib oğlu |
| 95 saylı Zərdab–Kürdəmir–Ucar seçki dairəsi | ƏLİYEVA Jalə Fazil qızı |
| 96 saylı Goranboy–Naftalan seçki dairəsi | BƏDƏLOV Bədəl Şamil oğlu |
| 97 saylı Tərtər–Ağdərə–Goranboy seçki dairəsi | MƏMMƏDOV Anar İlyaz oğlu |
| 98 saylı Bərdə–Tərtər seçki dairəsi | FƏTİYEV Xanlar Nuru oğlu |
| 99 saylı Bərdə seçki dairəsi | YILDIRIM Fatma Vidadi qızı |
| 100 saylı Göygöl–Daşkəsən–Kəlbəcər seçki dairəsi | BAYRAMOV Kamran Fərhad oğlu |
| 101 saylı Samux–Şəmkir seçki dairəsi | QURBANLI Mübariz Qəhrəman oğlu |
| 102 saylı Şəmkir şəhər seçki dairəsi | QAFAROVA Sahibə Əli qızı |
| 103 saylı Şəmkir kənd seçki dairəsi | HƏSƏNOV Nurlan Urfan oğlu |
| 104 saylı Gədəbəy seçki dairəsi | HÜSEYNOVA Sevinc Əmirəhməd qızı |
| 105 saylı Tovuz–Gədəbəy seçki dairəsi | NAĞIYEV Arzu Nəsib oğlu |
| 106 saylı Tovuz seçki dairəsi | SƏFƏROV Nizami Abdulla oğlu |
| 107 saylı Tovuz–Qazax–Ağstafa seçki dairəsi | AĞAYEVA Ülviyyə Cavanşir qızı |
| 108 saylı Ağstafa seçki dairəsi | ƏMİRASLANOV Azər Kamal oğlu |
| 109 saylı Qazax seçki dairəsi | SEYİDOV Səməd İsmayıl oğlu |
| 110 saylı Balakən seçki dairəsi | MƏHƏMMƏLİYEV Nəsib Məhəmməd oğlu |
| 111 saylı Zaqatala–Balakən seçki dairəsi | KƏRİMLİ Azər Şəmşid oğlu |
| 112 saylı Zaqatala seçki dairəsi | ƏSGƏROV Asif Yunis oğlu |
| 113 saylı Qax–Şəki seçki dairəsi | MƏSİMLİ Əli Əhməd oğlu |
| 114 saylı Şəki şəhər seçki dairəsi | İSKƏNDƏROV Vüqar Yapon oğlu |
| 115 saylı Şəki kənd seçki dairəsi | FEYZİYEV Cavanşir Əyyub oğlu |
| 116 saylı Qəbələ seçki dairəsi | MUSAYEV Elşən Məmmədhənifə oğlu |
| 117 saylı Oğuz–Qəbələ–Şəki seçki dairəsi | QURBANOV Eyvaz Daşdəmir oğlu |
| 118 saylı Ağdam–Xocalı seçki dairəsi | MƏMMƏDOV Elman Camal oğlu |
| 119 saylı Ağdam seçki dairəsi | ƏLİYEV Bəxtiyar Həmzə oğlu |
| 120 saylı Cəbrayıl–Qubadlı seçki dairəsi | MƏMMƏDOV Ceyhun Valeh oğlu |
| 121 saylı Laçın seçki dairəsi | MURADOV Rövşən Şahbaz oğlu |
| 122 saylı Xankəndi seçki dairəsi | GƏNCƏLİYEV Tural Babaşah oğlu |
| 123 saylı Kəlbəcər seçki dairəsi | QASIMLI Mircəlil Xəqani oğlu |
| 124 saylı Şuşa–Ağdam–Xocavənd seçki dairəsi | BÜLBÜLOĞLU Polad |
| 125 saylı Zəngilan–Qubadlı seçki dairəsi | İSMAYILOV İmamverdi İbiş oğlu |

| | | |
|---|---|---|
| **Mərkəzi Seçki Komissiyasının sədri** | **PƏNAHOV Məzahir Məhəmməd oğlu** | ________ |
| **Mərkəzi Seçki Komissiyası sədrinin müavini** | **QASIMOV Rövzət Afət oğlu** | ________ |
| **Mərkəzi Seçki Komissiyasının katibi** | **MUXTAROVA Arifə Ağaverdi qızı** | ________ |
| **Mərkəzi Seçki Komissiyasının katibi** | **RƏHİMOV Mikayıl Rəhman oğlu** | |
| **Mərkəzi Seçki Komissiyasının üzvləri:** | **CAVADOV Fuad Musa oğlu** | ________ |
| | **ƏLİYEV Şaitdin Sərdar oğlu** | ________ |
| | **İBRAHİMOV Ramiz Hilal oğlu** | ________ |
| | **KAZIMOVA Validə Faiq qızı** | ________ |
| | **PAŞAYEV Hüseyn Məmməd oğlu** | ________ |
| | **MƏMMƏDOV İlham Sabir oğlu** | ________ |
| | **NADİRXANLI Nizami Hüseyn oğlu** | ________ |
| | **ORUCOV Qabil Əhməd oğlu** | ________ |
| **M.Y.** | **ƏSGƏROV Bəxşeyiş Məmməd oğlu** | ________ |
| | **ƏSGƏROVA Nailə Şahmərdan qızı** | ________ |
| | **HƏSƏNOV Tofiq Eldar oğlu** | ________ |
| | **QƏHRAMANLI Almas Əlisultan qızı** | ________ |
| | **QULİYEV Etibar Cəfər oğlu** | ________ |
| | **ŞAHBAZOV İlkin Zaur oğlu** | ________ |

Protokol 2024-cü il sentyabrın 16-da saat 13:48-də tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd: ____________________

– –
– –
– –
– –

____________________ (soyadı, adı, atasının adı) ____________ (imza)

# “Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq”

**Dünən Bakıda Auditorlar Palatasının təşkilatçılığı ilə “Auditor xidməti haqqında” qanunun 30 illiyinə həsr olunmuş “Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Məclis “yaşıl” iqtisadiyyat şəraitində hesabatlılıq anlayışına yeni yanaşma, maliyyə göstəriciləri ilə yanaşı, qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri özündə ehtiva edən hesabatlılıq, nəzarət sisteminin qurulması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, tətbiqi üzrə fikir mübadiləsi aparmaq və tövsiyələr işləyib hazırlamaq məqsədi daşıyıb.**



Konfransda Beynəlxalq Mühasiblər Federasiyası, Avropa Mühasiblər və Auditorlar Federasiyası, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası kimi nüfuzlu beynəlxalq qurumları, eləcə də Azərbaycan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Özbəkistan, Pakistan, Rusiya və Türkiyəni təmsil edən 30 təşkilatdan 150-yə yaxın nümayəndə iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin və Zərifə Əliyevanın məzarlarını ziyarət edərək önünə gül dəstələri düzüblər.

Beynəlxalq elmi-praktik konfransı giriş sözü ilə açan Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov tədbirin əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, Azərbaycanda audit son 30 ildə formalaşmağa başlasa da, dövlət başçısının qayğısı sayəsində ölkədə sahibkarlığın inkişafı vüsət alıb. O, auditor fəaliyyətinin də sahibkarlığın bir sahəsi kimi inkişaf etdiyini diqqətə çatdırıb.

Bildirilib ki, qarşıdan gələn COP29-un reallaşması istiqamətində qəbul edilən təkliflərin icrası ilə əlaqədar Azərbaycan auditorları bundan sonra da dövlətimizin yanında olacaq və hesabatlılığın, şəffaflığın təkmilləşdirilməsi sahəsində yeni dövrün çağırışları nəzərə alınmaqla öz vəzifələrini uğurla həyata keçirəcək. Diqqətə çatdırılıb ki, ölkəmizdə beynəlxalq standartlara uyğun auditin, o cümlədən dövlət auditinin zəruri hüquqi bazası yaradılıb. Hazırda auditin artan əhəmiyyətinin dünyada müxtəlif platformalarda qeyd olunduğunu vurğulayan natiq bildirib ki, bugünkü konfransın timsalında belə tədbirlərin keçirilməsi audit institutun rolunun daha da artırılmasında, bu sahədə davamlı islahatların keçirilməsində və bununla da, maliyyə sektorunda nizam-intizamın möhkəmlərdirilməsində önəmli rol oynaya bilər.

Diqqətə çatdırılıb ki, ümumbəşəri problem olan iqlim dəyişikliklərinin təsirlərinin azaldılması və bu təsirlərə uyğunlaşma üçün fəaliyyətlərə əhəmiyyətli dövlət resurslarının cəlb olunması, prosesə milli hökumət əsaslı yanaşmanın tələb olunması bu sahəni Ali Audit Orqanı obyektinə çevirir. Son 5 ildə dünyada iqlim fəaliyyətinin qiymətləndirilməsi üzrə 50-dən çox auditin aparıldığını vurğulayan natiq bildirib ki, ətraf mühitlə bağlı məsələlər uyğunluq və maliyyə auditləri ilə əhatə edilə bilsə də, iqlim dəyişikliyi ilə əlaqədar audit mövzularında səmərəlilik auditi ön plana çıxır.

Tədbirdə Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Beynəlxalq Mühasiblər Federasiyasının prezidenti Asma Resmouki, Avropa Mühasiblər və Auditorlar Federasiyasının prezidenti Salvador Marin və digər qonaqlar təbrik nitqləri ilə çıxış ediblər.

“Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq” adlı beynəlxalq elmi-praktik konfrans iqlim fəaliyyətinin qiymətləndirilməsinə ali audit orqanlarının cəlb edilməsi, dayanıqlı inkişaf sahəsində məlumatların açıqlanması üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiq edilməsi, dayanıqlı inkişaf barədə hesabatlılıq, Avropa İttifaqında davamlılıq hesabatı və audit üçün hüquqi baza, “yaşıl” iqtisadiyyat şəraitində mühasiblər və auditorlar üçün əsas çağırışlara dair məruzələr dinlənilib. Tədbirdə, həmçinin bu sahələrdə beynəlxalq əlaqələrin genişləndirilməsi zərurəti və onun reallaşdırılması şərh edilib, “yaşıl” iqtisadiyyat, sosial məsuliyyət və ekoloji tarazlığın təmin edilməsi sahəsində 19 məruzə dinlənilib, faydalı fikir mübadiləsi aparılıb.

Beynəlxalq elmi-praktik konfrans çərçivəsində İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası və Auditorlar Palatası arasında Anlaşma Memorandumu imzalanıb.

Konfransın yekununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul edilib.

Sonda konfrans iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb. Eyni zamanda, təqdim edilən materialların toplu şəklində nəşr etdirilməsi və tövsiyələrin hazırlanması qərara alınıb.

Sentyabrın 17-də konfrans iştirakçılarının Qobustan Palçıq Vulkanları Turizm Kompleksi və Qobustan Milli Tarix-Bədii Qoruğu ilə tanışlığı, xarici ölkələrin audit və mühasibat qurumlarının nümayəndələri ilə auditin normativ hüquqi bazasına, metodiki təminatına, təşkili və tənzimlənməsinə dair təcrübə mübadiləsinin aparılması nəzərdə tutulub.

# “Azərkosmos” Nigeriyada da teleyayım xidməti göstərəcək




**Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) Niderland Krallığının Amsterdam şəhərində keçirilən “IBC 2024” beynəlxalq sərgi-konfransı çərçivəsində qlobal peyk operatoru “ABS” şirkəti ilə əməkdaşlığa dair müqavilə imzalayıb. Bu əməkdaşlıq sayəsində “Azərkosmos” “ABS” şikətinə məxsus peyk vasitəsilə Nigeriya ərazisində öz müştərilərinə “Pay TV” (ödənişli televiziya yayımı) xidmətini təqdim edəcək.**

Qeyd edək ki, “Pay TV” yalnız peyk və ya kabel televiziyası şirkətinə abunə yolu ilə həyata keçirilən xidmətdir. Eyni zamanda, qlobal peyk operatoru ilə tərəfdaşlıq Azərkosmos üçün yeni biznes xətlərini genişləndirmək imkanı yaradır. Belə ki, “Azərkosmos” təkcə öz peyk resurslarının satışı ilə deyil, həm də qlobal partnyorlara məxsus peyk xidmətlərinin kommersiyalaşdırılması ilə gəlir əldə edir və Afrika bazarında video xidmətlərinin həcmini artırır.

“Bir neçə istiqamətdə yeni kommersiya imkanları yaradan bu əməkdaşlıq nəticəsində “Azərkosmos”un xidmətləri Afrika regionunda daha da genişlənəcək. “ABS” ilə birgə görüləcək işlərin təməlində keyfiyyət, müştəri məmnuniyyəti və xidmət davamlılığı dayanır”, – deyə “Azərkosmos”un İdarə heyətinin sədr müavini Fuad Aslanov bildirib.

“ABS” şirkətinin baş kommersiya direktoru Ramsi Hanfur əlavə edib: “Bu tərəfdaşlıq Qərbi Afrika bazarında həm əhatə dairəmizi, həm də xidmət təkliflərimizi genişləndirmək fürsəti verir. Biz regionda etibarlı və yüksək keyfiyyətli ödənişli televiziya yayımı xidmətləri sayəsində təcrübəmizi birləşdirəcəyik”.

# 23 ölkəyə 16,4 milyon ton neft ixrac olunub

**2024-cü ilin yanvar–avqust aylarında Azərbaycan dünyanın 23 ölkəsinə 10 milyard 308 milyon 18,86 min ABŞ dolları dəyərində 16 milyon 475 min 802,81 ton neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**



Komitənin hesbatına əsasən, cari ilin 8 ayında İtaliyaya 3 milyard 940 milyon 368,79 min dollar dəyərində 6 milyon 226 min 91,81 ton neft ixrac edilib. Bununla da, İtaliya əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə birinci olub. Ölkəmizin ümumi neft ixracında ikinci yerdə İsrail qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 1 milyard 377 milyon 514,65 min dollar dəyərində 2 milyon 233 min 526,78 ton neft göndərilib. Siyahıda ilk üçlüyü isə Çexiya tamamlayıb. Belə ki, 8 ayda bu ölkəyə 738 milyon 773 min dollarlıq 1 milyon 165 min 388,19 ton neft ixrac olunub.

Xatırladaq ki, hesabatda qeyd olunan göstəricilərdə yanvar–avqust aylarında gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.

# Enerji təchizatı xidmətlərinin gəlirləri artıb

**Cari ilin yanvar–avqust aylarında ölkədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2 milyard 43 milyon manat (2023-cü ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 0,1 faiz çox) dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.**



Dövlət Statistika Komitəsinin bu barədə məlumatına görə, hesabat dövründə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 397,3 milyon manat təşkil edib, bu da illik müqayisədə 8,8 faiz artım deməkdir.

Xatırladaq ki, ötən il Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 3 milyard 65 milyon manat (2022-ci ilin göstəricisi ilə müqayisədə 0,6 faiz çox) məhsul istehsal olunub.

2023-cü ildə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 586 milyon manat (illik müqayisədə 15,5 faiz çox) təşkil edib.

# Hacıqabulda buraxılan avtobuslar Bakı–Sumqayıt marşrutunda

**Metronun “Azadlıq prospekti” stansiyasını Sumqayıt şəhərinin Sülh küçəsi ilə əlaqələndirən 123 nömrəli müntəzəm marşrut xətti sərnişinlərin istifadəsinə verilib.**



Nəqliyyat üzrə ekspert Rauf Ağamirzəyevin bildirdiyinə görə, marşrut üzrə işləyən yeni “Isuzu” avtobusları “AzMaşın” Hacıqabul Sənaye Məhəlləsi ilə Özbəkistanın “SamAuto” şirkətinin birgə istehsaldır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin sentyabrında Hacıqabul Sənaye Məhəlləsində açılışını etdiyi “AzMaşın” zavodu rayonun iqtisadi inkişafı üçün böyük təkan olmaqla yanaşı, ölkəmizdə avtomobil sənayesinin formalaşmasında mühüm rol oynayır. Bu prosesdə Özbəkistanla əməkdaşlıq hər iki ölkənin iqtisadiyyatı üçün böyük önəm daşıyır.

“AzMaşın” və “Uzavtosanoat” səhmdar cəmiyyətlərinin müştərək müəssisəsi olan “Azərmaş CP”də “Minik avtomobilləri və sərnişin avtobuslarının istehsalı” birgə layihəsi uğurla davam etdirilir. İndiyədək 14 modeldə 2,5 mindən çox “Chevrolet” markalı minik avtomobili və Yaponiyanın “İSUZU” brendinin avtobusları istehsal olunub.

# “The Economist”in ölkəmizlə bağlı nikbin proqnozu

**Qaz hasilatı 2024–2028-ci illərdə Azərbaycanda iqtisadi artımı təmin edəcək. Bu barədə “The Economist Group”un araşdırma və təhlil bölməsi olan “Economist Intelligence Unit”in ölkə ilə bağlı proqnozunda bildirilib.**




Qeyd olunub ki, 2028-ci ilə qədər neftin bir barelinin qiyməti 70 ABŞ dollarından yuxarı səviyyədə qalacaq. Azərbaycanın orta müddətli artımı qeyri-neft və qaz sektorlarında istehsalın genişlənməsindən də faydalanacaq. 2024–28-ci illər üzrə iqtisadi artım proqnozu on illik tarixi orta göstəricidən daha yuxarı olacaq.

“The Economist”, ümumilikdə, 2024-cü il üzrə Azərbaycanda 2,6 faiz, 2025 və 2026-cı illərdə 2,9 faiz, 2027-ci ildə 3,1 faiz və 2028-ci ildə isə 3,2 faiz iqtisadi artım proqnozlaşdırıb.

# 7 ayda 4 min 500-dən çox alıcı şikayəti araşdırılıb

**Bu ilin 7 ayı ərzində Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində istehlakçı hüquqlarının müdafiəsi, istehlak bazarına nəzarət və təbii inhisarların fəaliyyəti ilə əlaqədar 4 min 550 istehlakçı müraciətinə baxılmışdır. Şikayətlərin 53,2 faizi qeyri-qida, 5 faizi qida, 39,6 faizi xidmət, 1,9 faizi dərman vasitələri və tibbi avadanlıqlar, 0,3 faizi isə digər sahələrlə bağlı olub.**

Dövlət Xidmətindən “XQ”yə bildirilib ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində pozuntu hallarının qarşısının alınması və vətəndaş müraciətlərinə çevik şəkildə baxılması istiqamətində fəaliyyətini davam etdirir.



*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# AYİB Azərbaycanın COP29 hazırlıqlarından məmnundur

**BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının bu ilin noyabr ayında Bakıda keçiriləcək 29-cu sessiyasına (COP29) beynəlxalq maraq olduqca yüksəkdir. Bu da təsadüfi deyil. Çünki qlobal iqlim dəyişikliklərinin mənfi təzahürləri ilə mübarizə bütün beynəlxalq aləmi birgə fəaliyyətə sövq edir. Təsadüfi deyil ki, indi dünyanın bir sıra ölkələri, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar bu mühüm iqlim tədbirinə ciddi hazırlıq işləri görürlər.**

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) COP29 çərçivəsində bir sıra tədbirlər keçirməyi planlaşdırır. Bu barədə mətbuata açıqlamasında bankın Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elizabetta Falçetti ölkəmizə etdiyi ilk səfəri zamanı deyib. O, səfərinin əsas məqsədinin Azərbaycan hökuməti ilə güclü əlaqələr qurmaqdan ibarət olduğunu bildirib.



Bank rəsmisi qeyd edib ki, səfər çərçivəsində ölkənin imkanlarını və çağırışlarını, xüsusilə də özəl sektorun dəstəklənməsi sahəsindəki potensialını öyrənmək də görüş və müzakirələrin əsas mövzusu olacaq. Onun sözlərinə görə, təmsil etdiyi bankın əsas fəaliyyət istiqamətindən biri olan bu məsələlərlə yanaşı, COP29-a hazırlıq vəziyyətini qiymətləndirmək də önəmlidir, çünki AYİB beynəlxalq maliyyə institutu olaraq tədbirlərdə iştirak edəcək: “Bu mövzu bizim üçün olduqca vacibdir, çünki bank yalnız Azərbaycanda deyil, digər ölkələrdə də iqtisadiyyatın “yaşıllaşdırılması” ilə fəal şəkildə məşğuldur. Biz qarşımıza Paris Sazişi ilə uyğun gələn layihələri maliyyələşdirmək və hər il biznes investisiyalarımızın ən azı 50 faizini “yaşıl” maliyyələşdirməyə yatırmaq kimi olduqca ambisiyalı məqsəd qoymuş və buna nail olmuşuq”.

Avropa Yenidənqurma və İnkişaf Bankının bu məqsədləri fəaliyyət göstərdiyi bütün ölkələrdə irəlilətməyə çalışdığını vurğulayan Elizabetta Falçetti Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə olaraq yalnız saziş tərəflərini toplamaqla deyil, həm də daha ambisiyalı dekarbonizasiya hədəflərini müəyyən etməklə nümunə göstərəcəyinə əminliyini bildirib.

COP29 çərçivəsində AYİB-in planlaşdırdığı tədbirlər haqqında məlumat verən qonaq deyib: “Hazırda işlər davam edir. COP vasitəsilə reallaşdırdığımız bir sıra təşəbbüslər var. Lakin əsas layihələrdən biri hidrogen strategiyasının tədqiqatıdır. Milli hidrogen strategiyasının hazırlanmasına kömək məqsədilə hökumətlə əməkdaşlığa üstünlük veririk və nəticələri COP29-da təqdim etməyi düşünürük. Bu, iştirakçı ölkələr arasında geniş müzakirə ediləcək mövzulardan biridir. Bu tədqiqatda iştirak etmək çox vaxtında oldu və nəticələrini maraqla gözləyirəm. Çünki bu, bizim yanaşmamıza təsir göstərəcəl və gələcəkdə inkişafı dəstəkləyib-dəstəkləyə bilməyəcəyimizi müəyyən edəcək”.

Azərbaycanın enerji sektorunda aşağı karbonlu inkişaf yollarının hazırlanmasını dəstəklədiyini diqqətə çatdıran icraçı direktorunun sözlərinə görə, bu tədqiqat COP29-da ölkələrin nəzərdən keçirilmiş və daha ambisiyalı dekarbonizasiya hədəfləri təqdim etmələrinin məqsədlərindən biri olduğu üçün vacibdir. COP-un üçüncü mövzusunun təmsil etdiyi bank üçün də çox önəmli olduğunu vurğulayan Elizabetta Falçetti deyib ki, AYİB Azərbaycan hökumətinə ölkədə günəş elektrik stansiyaları üzrə ilk hərracın hazırlanmasında və keçirilməsində dəstək verib və hökumətin COP-da ikinci mərhələdə iştirak etməyə seçilən iştirakçılardan hansının üstün olduğunu elan etməsini gözləyir. Onun fikrincə, hərracın qalibini öyrənmək maraqlı olacaq, çünki bu, AYİB-in iştirakını və dəstəyini müəyyən etməyə kömək edəcək. Yeri gəlmişkən, Azərbaycanın Energetika Nazirliyi AYİB-in dəstəyi ilə ölkədə 100 meqavat gücündə günəş elektrik stansiyası layihəsi üçün ilk hərracı elan edib.

Bərpaolunan enerji mənbələrinin dəstəklənməsinin və qalıq yanacaqlardan imtinanın təmsil etdiyi bank üçün prioritet olduğunu vurğulayan Elizabetta Falçetti Qara dənizin dibi ilə çəkiləcək enerji kabeli layihəsinin maliyyələşdirilməsi məsələsinə də toxunub: “Layihə başlanğıc mərhələdədir, buna görə də strukturu, məqsədəliliyi, maliyyələşdirənlərin kim olduğu və borc alanın kim olacağı kimi məsələlər önəmlidir. Şübhəsiz ki, hadisələrdən xəbərdar olmaq istəyirik. Biz vəziyyəti diqqətlə izləyirik, çünki layihədə dörd və ya beş ölkə iştirak edir. Son vaxtlar Buxarestdə birgə müəssisənin yaradılması ilə bağlı irəliləyiş əldə edildiyi məlumdur. Lakin biz konkret layihələrə yönəlmiş bir institut olduğumuz üçün layihənin nə olduğunu və AYİB-in prioritetləri və iştirak meyarlarına uyğun olub olmadığını başa düşməyimiz vacibdir”.

İcraçı direktor, həmçinin AYİB-in infrastrukturu inkişaf etdirmək, xüsusilə “yaşıl” şəhərlər proqramını həyata keçirməkdə fəal iştirakını müzakirə etdiyini bildirib. Onun dediyinə görə, Gəncə bankın ilk azərbaycanlı “yaşıl” şəhəridir. Azərbaycanın bu qədim diyarı ilə birgə “yaşıl” şəhərlər üzrə Fəaliyyət Planının hazırlanmasından məmnunluğunu diqqətə çatdıran bank rəsmisi onun həyata keçirilməsini və şəhərin transformasiyası və “yaşıllaşdırılması” üçün digər layihələri səbirsizliklə gözlədiklərini vurğulayıb. “Bu istiqamətdə daha çox iş görə biləcəyimizə əminəm. Ölkədəki əməkdaşlığımızı davam etdirmək üçün səbirsizliklə gözləyirəm”, – deyə o, əlavə edib.

**Qazaxıstanın paytaxtı Astana şəhərində İkiillik Şəffaflıq Hesabatlarının (BTR) hazırlanması üzrə Mərkəzi Asiya, Cənubi Qafqaz və Şərqi Avropa regionu üzrə keçirilən tədbir çərçivəsində COP29 sədrliyinin “Bakı Qlobal İqlim Şəffaflığı Platforması”nın təqdimatı olub.**

Azərbaycanın təşəbbüsü və həmtəşkilatçılığı ilə keçirilən sözügedən tədbirin tərəfdaşları qismində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım və Qazaxıstanın Beynəlxalq İnkişaf agentlikləri, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, BMT-nin İnkişaf və Ətraf Mühit proqramları və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı çıxış ediblər. Təlim seminarında, ümumilikdə, qeyd olunan region üzrə Bakı Qlobal İqlim Şəffaflığı Platformasının hazırlanmasına məsul 50-dən çox ekspert iştirak edib.

# Astanada Bakı Qlobal İqlim Şəffaflığı Platformasının təqdimatı



Tədbirin açılış mərasimində Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva çıxış edərək Azərbaycanın COP29 sədrliyi və bu çərçivədə həyata keçirilən qlobal təşəbbüslər, o cümlədən Bakı Qlobal İqlim Şəffaflığı Platforması barədə məlumat verib. O, platformanın əsas məqsədinin tərəf dövlətləri arasında inam və etimad yaratmaq, eləcə də inkişaf etməkdə olan ölkələrə bu cür platformaların hazırlanması və yekunlaşdırılmasında dəstək göstərməklə yanaşı, Genişləndirilmiş Şəffaflıq Çərçivəsində universal iştirakı təşviq edərək şəffaflıq gündəliyini COP29-dan sonra da davam etdirmək olduğunu vurğulayıb.

Nazir müavini bildirib ki, Bakı Qlobal İqlim Şəffaflığı Platforması hökumət, beynəlxalq təşkilatlar, QHT-lər və özəl sektor da daxil olmaqla cəmiyyətin bütün sahələrindən olan maraqlı tərəflər arasında iqlim şəffaflığı sahəsində əməkdaşlıq və koordinasiya məkanı olacaq.

Təqdimatda Qazaxıstanın Ekologiya və Təbii Sərvətlər naziri Yerlan Nyssanbayev, Qazaxıstan Respublikası Prezidentinin müşaviri və beynəlxalq ekoloji əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Zülfiyyə Süleymanova və digər beynəlxalq təşkilatların nümayəndələri çıxış edərək Azərbaycanın COP29 sədrliyinə dəstəyini ifadə edib, ölkənin iqlim şəffaflığı sahəsində səylərini yüksək qiymətləndiriblər. Çıxışçılar COP29 sədrliyinin iqlim şəffaflığı sahəsində önəmli təşəbbüsü olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının əhəmiyyətini vurğulayıb, bu təşəbbüsün qlobal fəaliyyətə töhfə verəcəyini ifadə ediblər.

Xatırladaq ki, bu il sentyabrın 3-də Bakıda keçirilən Qlobal İqlim Şəffaflığı üzrə Yüksək Səviyyəli Dialoq zamanı Azərbaycan COP29 sədri qismində Bakı Qlobal İqlim Şəffaflığı Platforması təsis etmişdir. Bu platformaya qlobal dəstəyin təmin olunmasının təşviqi məqsədilə COP29 sədrliyinin təşkilatçılığı ilə sentyabrın 9–10-da Toqo və Keniyada reallaşan Afrika regionu ölkələri üçün BTR-ların hazırlanmasına həsr olunan tədbirlərdə Bakı Qlobal İqlim Şəffaflığı Platformasının təqdimatı keçirilib. Platformanın qlobal təşviqi üzrə növbəti yüksək səviyyəli tədbirin BMT-nin Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində sentyabrın 25-də Nyu-Yorkda keçirilməsi planlaşdırılır.

# TDT energetika nazirlərinin Bişkek toplantısı

**Dünən Qırğız Respublikasının paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin energetika nazirlərinin 4-cü iclası keçirilib. Tədbirdə TDT-yə üzv və müşahidəçi ölkələr arasında energetika sahəsində qarşılıqlı fəaliyyət və “TDT-nin Enerji Əməkdaşlığı üzrə Programı (2023–2027)” sənədi ilə bağlı müzakirələr aparılıb.**



Azərbaycanın energetika naziri Pərviz Şahbazov iclasda çıxış edərək türk dövlətlərinin enerji əməkdaşlığını gücləndirən “yaşıl” enerji layihələrindən danışıb. Nazir dövlət başçılarının ölkələrimizin zəngin təbii resurslarını, enerji-nəqliyyat dəhlizlərini və böyük potensialını Mərkəzi Asiyadan Avropayadək geniş coğrafi məkanda qarşılıqlı faydalı əməkdaşlığa, qardaşlıq ruhunu qorumaqla böyük uğurlara imza atmağı hədəfləyən aydın strateji baxışları və qətiyyətli siyasətlərinin TDT-nin statusunu möhkəmləndirdiyini qeyd edib. Bu baxımdan, qurumun Şuşada qeyri-rəsmi sammitində qəbul olunmuş Qarabağ Bəyannaməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Nazir Pərviz Şahbazov deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır” çağırışı və Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionlarının vahid geosiyasi regiona çevrilməsi istiqamətində səyləri yeni tarixi mərhələdə türk dövlətləri ilə münasibətlərimizin xarakterini əks etdirir. Təşkilata üzv və müşahidəçi ölkələrlə Azərbaycanın ticarət dövriyyəsinin ötən il 9 milyard dolları ötdüyü, bu ölkələrin iqtisadiyyatımıza 18,2 milyard dollar, Azərbaycanın isə bu dövlətlərə 20,3 milyard dollar investisiya qoyduğu bildirilib.

Enerji sahəsində əməkdaşlığın türk dövlətləri arasında əlaqələrin strateji sütunu kimi dəyərləndirilərək bildirilib ki, Azərbaycan – Türkiyə enerji birliyinin BTC ilə yanaşı, Bakı–Tbilisi–Ərzurum, TANAP, Cənub Qaz Dəhlizi kimi möhtəşəm töhfələri bu gün Türkiyə və çoxsaylı ölkələrin enerji təhlükəsizliyini təmin edir. Ötən il və cari ilin 8 ayında bu kəmərlərlə Türkiyə və dünya bazarlarına 41 milyon ton neft və 37 milyard kubmetr qaz ixrac olunub. Bu il gözlənilən 25 milyard qaz ixracının isə 9,8 milyard kubmetrinin Türkiyəyə, 12,5 milyard kubmetrinin isə Avropaya tədarükü nəzərdə tutulur.

Nazir, həmçinin bildirib ki, Bakı–Tbilisi–Ceyhan kəməri ilə indiyədək 2 milyon ton Qazaxıstan neftinin nəqli və bu həcmlərin mərhələli artırılmasına dair razılaşma isə Azərbaycanın Mərkəzi Asiya ilə Türkiyə və Avropa arasında birləşdirici roluna bir sübutdur: “Türk dövlətləri ilə enerji əməkdaşlığımız nəinki yüksələn xətt üzrə inkişaf edir, eyni zamanda, regional əhəmiyyətli yeni layihə və təşəbbüslərin reallaşmasına impulslar verir. Bu kontekstdə, “Xəzər–Qara dəniz–Avropa”, “Azərbaycan–Qazaxıstan–Özbəkistan” və Naxçıvan üzərindən “Azərbaycan–Türkiyə–Avropa” “yaşıl” enerji dəhlizləri layihələri türk dövlətlərini Avrasiyada təmiz enerji təchizatında və enerji keçidində mühüm rol oynayan ölkələrə çevirəcəkdir. Ölkələrimizin zəngin enerji potensialını və elektrik enerji sistemlərini əlaqələndirməkdən əlavə Azərbaycan və Türkiyə üzərindən Avropaya ixracı təmin etməklə bu dəhlizlər vahid “yaşıl” enerji platforması olmağa iddialıdır”.

Tədbirdə “Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında hökumətlərarası saziş”in yaxın vaxtlarda imzalanmasının planlaşdırıldığını, Qırğızıstanla bərpaolunan enerji sahəsində əməkdaşlığın da gündəmdə olduğu diqqətə çatdırılıb. Həmçinin bildirilib ki, COP29 çərçivəsində Mərkəzi Asiya ölkələri üçün Enerji Keçidi İnvestisiya Forumunun keçirilməsi “yaşıl” enerji məqsədləri naminə həmrəylimiz üçün daha bir fürsət olacaq.

Müzakirələrdən sonra iclasın yekunlarına dair Birgə Kommünike imzalanıb. Sənəddə TDT-nin Enerji Əlaqələndirmə Komitəsinin, Texnologiya və Yaşıl Təşəbbüslər üzrə Regional Mərkəzinin və “yaşıl” enerji dəhlizlərinin yaradılmasına dəstək ifadə olunub. Həmçinin sənəddə türk dövlətlərinin noyabrın 15-də Bakıda keçiriləcək COP29 Enerji Günündə fəal iştiraka hazır olduqları əksini tapıb.

Xatırladaq ki, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Türk Dövlətləri Təşkilatına üzv, Macarıstan,Türkmənistan və Şimali Kipr Türk Respublikası isə müşahidəçi dövlətlərdir.



# “Fərqlilik yaradanlar”ın beynəlxalq kampaniyası

**COP29-a hazırlıq çərçivəsində “Fərqlilik yaradanlar” adlı qlobal kampaniyaya başlanılıb. BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin bununla bağlı məlumatında bildirilir ki, kampaniya iqlim həllərini təşviq etmək, yenilikçi ideyaları olan müxtəlif regionalardan fərdlərin və novatorların həyata keçirdiyi layihələri və fəaliyyətləri işıqlandırmaq məqsədi daşıyır.**

N.Arpadarainin sözlərinə görə, “Fərqlilik yaradanlar” kampaniyası çərçivəsində sosial sahibkarların, icma nümayəndələrinin və startap ideyaları olan fərdlərin layihələri seçilərək müxtəlif platformalarda nümayiş etdiriləcək. Bu zaman hər bir fərdin ətraf mühitə müsbət təsir göstərmək fəaliyyətinin zəruriliyi xatırladılmaqla bərabər, onun iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulması da təqdir olunacaq. Kampaniya zamanı seçiləcək layihələr həm onlayn platformalarda, həm də Azərbaycanda keçiriləcək COP29 zamanı “Fərqlilik yaradanlar” sərgisi çərçivəsində təqdim ediləcək.

“Fərqlilik yaradanlar” nominasiyası üzrə qalib namizədləri beynəlxalq tədqiqat institutları, sosial təşkilatlar və kommunikasiya platformalarının nümayəndələrindən ibarət olan komitə seçəcək. Namizədlərin qiymətləndirilməsi zamanı onların innovativ yanaşmaları, yaradıcılıq məharətləri və ünsiyyət bacarıqları, eləcə də təşəbbüslərinin təsir və miqyası nəzərə alınacaq.

Aksiyanın geniş əhatəli, inklüziv və əlçatan olmasını reallaşdırmaq üçün Linkedİn, İnstagram, TikTok və “X” sosial şəbəkələrindən istifadə olunacaq. Arzu edən hər kəs öz icmasında, şəhərində və ya şirkətində iqlim həlləri üzrə həyata keçirdikləri təşəbbüslərin əvvəl və sonrakı mərhələlərini əks etdirən fotoşəkilləri və ya videoları #COP29ImpactMakers həştəqi ilə bölüşərək layihələrinə necə başladıqlarını və hazırda necə davam etdirdiklərini paylaşacaq.

Nigar Arpadarai vurğulayıb ki, iqlim dəyişmələri qlobal cavab tədbirləri tələb edən problemdir: “Bu, eyni zamanda, həm də gələcək nəsillər üçün ədalətli dünya yaratmaq və fəxr edə biləcəyimiz irs qoymaq baxımından unikal fürsətdir. BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu kimi bir çox insanların iqlim dəyişməsinin təsirlərinə qarşı ilhamlandırıcı hekayələrinin şahidi oluram, amma çox zaman bu hekayələr paylaşılmamış qalır. Ətraf mühitə müsbət təsir göstərən, fərqlilik yaradan bu hekayələri bütün insanlara çatdırmaq istəyirəm. Çünki belə şəxslərin fəaliyyəti hər kəsi sağlam gələcək üçün qlobal fəaliyyətə ilhamlandıracaq".

İlk “Fərqlilik yaradanlar” sentyabrın 23-də ABŞ-ın Nyu-York şəhərində keçiriləcək İqlim Həftəsində kampaniyanın rəsmi başlanğıcına həsr olunan tədbir zamanı seçiləcək və təqdim olunacaqlar.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yeniləşən Azərbaycanın milli təhsili yeni məktəblərlə müasirləşir

## *Heydər Əliyev Fondunun çağırışı ilə son 20 ildə ölkədə kütləvi məktəb quruculuğu aparılıb*

**Sentyabrın 16-da Azərbaycanda yeni dərs ili başlanıb. Ümumtəhsil müəssisələri, peşə məktəbləri, kolleclər və universitetlər aktiv fəaliyyətə keçiblər. Əllərində çanta və gül dəstələri məktəbə üz tutan 1-cilər rəngarəng görüntülər yaradıblar. Yeni tədris ilində ümumtəhsil müəssisələrində ilk dərs "Yaşıl dünya naminə həmrəylik" mövzusuna həsr olunub.**






Bu il ölkə üzrə I siniflərə 132 min 261, məktəbəhazırlıq qruplarına isə 89 min uşaq qəbul olunub. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələri üzrə, ümumilikdə, 513 min 698 şagird dərs alacaq. Bu məktəblərin I sinfində 46 min 98, IX sinfində 44 min 233, X sinfində 35 min 757, XI sinfində 32 min 260, XII sinfində 156 şagird təhsil alacaq.

Paytaxtın məktəbəqədər tədris müəssisələrinə 45 min 201 uşaq, ümumtəhsil müəssisələrinin hazırlıq qruplarına isə 29 min 216 beşyaşlı cəlb olunub. Qeyd edək ki, BŞTİ-nin tabeliyində 698 təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 342-si məktəbəqədər təhsil müəssisəsi, 327-si ümumi təhsil, 3-ü xüsusi tipli ümumi orta məktəb, 5-i əyani-qiyabi axşam məktəbi, 12-si internat tipli müəssisə, 9-u isə məktəbdənkənar müəssisədir.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" çağırışına cavab olaraq 2004-cü ildən bəri ölkənin 4 min 500-dək məktəbinin 4 minə qədəri əsaslı təmir dilib, yenidən tikilib. Bunların 520-dən çox bilavasitə fondun layihəsi əsasında tikilib və yeniləşdirilib. Ötən dərs ilində ölkə məktəblilərinə daha 17 bina hədiyyə edən qurum Şamaxı rayonunun Göylər kəndində istifadəyə verilən məktəblə tikdidiyi təhsil ocaqlarının sayını 500-ə çatdırmışdı.

Ənənəsinə sadiq qalan Heydər Əliyev Fondu builki Bilik Günündə Şamaxı rayonunun Bağırlı kəndində 460 və Hacıqədirli kəndində 132 şagird yerlik məktəblərin təntənəli açılışını keçirdi. Xaçmaz rayonunun İstisu qəsəbəsində və Ağstafa rayonu Zəlimxan kəndində də fondun yenidən tikdirdiyi məkətəb binaları istifadəyə verildi. Laçının Suş, Şərurun Təzəkənd, Füzulinin Aşağı Alıxanlı, Beyləqanın Kəbirli, Sabirabad Qalaqayın, İmişlinin Yalavac, Zaqatalanın Muğan kənd orta məktəbləri də Ulu öndərin adını daşıyan fondun çağırışına cavab olaraq yeniləşdirildikdən sonra bu dərs ilində qapılarını şagirdlərin üzünə açdı.

Azərbaycanda təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha bilikli yetişməsinə hesablanıb. Yeni tədris ilində ölkədə 29 yeni məktəb istifadəyə verilib. Ümumilikdə, 83 məktəbin tikintisi davam edir, 37 məktəbin layihələndirilməsi həyata keçirilib, 670-dən artıq məktəb təmir edilib. Yeni məktəblər laboratoriya, təlim, tibb otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası, zəruri mebel və avadanlıqlar, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib. Məktəblərin həyətyanı ərazisində də abadlıq və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Eləcə də işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində təhsil müəssisələrinin tikintisi və təmiri davam edir. Şuşa şəhərində 33 ildən sonra ilk məktəb zəngi çalınıb. Belə ki, buraya köçürülən ailələrin 113 övladı Şuşa şəhər 1 saylı tam orta məktəbdə yeni tədris ilinə başlayıblar. Yenidən qurulan məktəb 960 yerlik olmaqla, 5 bloklu və 3 mərtəbəlidir. Müasir standartlara uyğun inşa edilən məktəb hər biri 24 şagird üçün nəzərdə tutulmaqla, 40 sinif otağından ibarətdir. Məktəbdə tədris 18 müəllimdən ibarət pedaqoji heyət tərəfindən həyata keçiriləcək. Şagirdlərin yaşayış yerlərindən məktəbə gətirilməsi üçün xüsusi nəqliyyat vasitələri ayrılıb.

Naxçıvanda da yeni dərs ili böyük coşqu ilə başlanıb. Muxtar respublikada orta məktəblərdə 3 min 797 şagird 1-ci sinfə gedib. 3 min 171 uşaq məktəbəhazırlıq qruplarında tədrisə cəlb olunacaq. Ümumilikdə isə 52 mindən artıq şagird təhsil alacaq.

Dünən ölkənin təhsil rəsmiləri şagirdlərlə birgə ilk zəngə şahidlik ediblər. Elm və təhsil naziri Emin Əmrullayev Xocalıda inşa olunan yeni məktəbin ilk dərs gününün açılışında iştirak edib. Nazir öz çıxışında məktəb kollektivini yeni dərs ili münasibətilə təbrik edib və onlara uğurlar arzulayıb. Şuşada illər sonra tədrisin bərpa olunmasını tarixi gün kimi dəyərləndirib: "Azərbaycanın müasir təhsil tarixinin başlanmasının çox önəmli bir mərhələsi Şuşa şəhəri ilə bağlıdır. Məhz Şuşa işğaldan azad olunduqdan sonra şəhərdə təməli qoyulan ilk binalardan biri də bu məktəb idi. Bilirsiniz ki, müasir standartlara uyğun inşa edilən bu məktəbin tikintisi çox qısa zaman ərzində tamamlanaraq istifadəyə verilib. Mübaliğəsiz deyə bilərəm ki Şuşa, məktəbi Azərbaycanın təhsil sistemində, ən müasir və bizim arzu etdiyimiz məktəblər səviyyəsindədir".

Nazir cari tədris ilində işğaldan azad edilən ərazilərdə açılacaq yeni məktəblərdən də söz açıb: "Bir neçə gündən sonra Xankəndidə də məktəb açılışımız olacaq. Bu tədris ilində Cəbrayıl və Kəlbəcər şəhərlərində, eyni zamanda, bir sıra kəndlərimizdə yeni məktəblərimizin açılışı planlaşdırılır. Hər bir məktəb açılışı yüzlərlə ailəyə sevinc bəxş edir".

Şuşa şəhər 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova yeni təhsil ocağı barədə məlumat verərək bildirib ki, hər biri 2 olmaqla fizika, kimya, biologiya, texnologiya, informatika otaqları, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binalar da var. Məktəbin şagirdləri ən qabaqcıl standartlara uyğun təhsil alacaqlar. Direktor dövlətimizin göstərdiyi yüksək diqqət və qayğıya əməli işlə cavab verəcəklərini bildirib.

Bu il azad Şuşa məktəbinin 1-ci sinfində 149 şagird təhsil alacaq.

*

Bakıdakı 276 saylı məktəbdə olan nazirliyin yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov bir sıra vacib məsələlərə toxunaraq deyib ki, şagirdlərin təhlükəsiz, sağlam mühitdə təhsil alması vacib amildir. Bu istiqamətdə valideynlərin öhdəsinə mühüm vəzifə düşür: "Valideynlər daim məktəblə, müəllimlərlə ünsiyyətdə olmalıdırlar".

Elm və təhsil nazirinin müavini İdris İsayev paytaxtın 53 nömrəli tam orta məktəbində keçirilən Bilik Günü tədbirində deyib ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində həyata keçirilən tədbirlər ulu öndər Heydər Əliyevin müəyyən etdiyi təhsil siyasətinin uğurlu davamıdır. Nazir müavini bildirib ki, Heydər Əliyev Fondunun dəstəyi, Elm və Təhsil Nazirliyinin xətti ilə məktəblərin 80 faizi yenilənib.

Qərb bölgəsinin ümumtəhsil müəssisələrində 2024–2025-ci tədris ilinin ilk günü bayram edilib. Gəncə–Daşkəsən Regional Təhsil İdarəsinin tabeliyində 192 tam, 46 ümumi, 13 ibtidai və 1 xüsusi məktəb fəaliyyət göstərir. Yeni dərs ilində bu təhsil müəssisələri üzrə 84 min 149 şagird təhsil alacaq. Ümumi müəllim sayı 8138 nəfərdir. Onlardan 183-ü 2024–2025-ci tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsi vasitəsilə yeni təyinat alıblar. Təhsil infrastrukturunun yaxşılaşdırılması məqsədilə Gəncə–Daşkəsən Regional Təhsil İdarəsi üzrə 38 məktəbdə cari təmir işləri aparılıb.

Onu da bildirək ki, bir sıra qurumlar şagirdlərə kömək məqsədilə aksiyalar həyata keçiriblər. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış 200 uşağa məktəbli çantası və digər ləvazimatlar hədiyyə edib. "YAŞAT" Fondunun təşkilatçılığı, "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin tərəfdaşlığı, "Nar"ın baş sponsorluğu ilə yeni tədris ilinin başlanması ilə əlaqədar şəhidlərimizin 1–11-ci siniflərdə təhsil alan övladlarına illik dərs ləvazimatlarından ibarət hədiyyə qutuları çatdırılıb. Hədiyyə qutusuna çanta, termos, qələm qabı, dəftər-qələm, xəritə, rəsm albomu, rəngli boya və s. daxil edilib. Respublikanın bütün ərazisi üzrə 792 şəhidin 1365 məktəbli övladına hədiyyə qutusu verilib.

*

İşğaldan azad olunan Xocalıda 32 ildən sonra ilk Bilik günü keçirilib. Bu münasibətlə təşkil olunan tədbirdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, elm və təhsil naziri Emin Əmrullayev, Qarabağ Regional Təhsil İdarəsinin müdir müavini Anar Məcidov, məktəb kollektivi və valideynlər iştirak ediblər. Tədbir iştirakçıları Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə tədris prosesi ilə yaxından tanış olublar. Bildirilib ki, ikimərtəbəli məktəb binası 132 şagird yerlikdir. Məktəbin bir korpusu tədrisə aiddir, digər korpus idman zalı, akt zalı və kitabxanadan ibarətdir. Məktəbdə kimya, biologiya, fizika, informatika, hərbi hazırlıq kabinələri, STEAM otağı yaradılıb. Təhsil ocağı bütün avadanlıqlarla təmin olunub.

Bilik Günü bir sıra rayonlarda yeni məktəb binası istifadəyə verilib. Cəlilabad rayonunda Pərdi kənd ümumi orta məktəbin yeni binasının açılış mərasimi zamanı qonaqlar təhsil ocağında yaradılmış şəraitlə tanış olublar. Məktəbin yeni binası 130 şagird yerlikdir. 8 sinif otağından, 1 kitabxanadan, 1 müəllimlər otağından, 1 direktor otağından ibarət təhsil müəssisəsinin həyətində yardımçı bina, qapalı mini idman meydançası inşa edilib. Məktəbin binası müasir elektrik, kombi istilik sistemləri, su anbarı və quyusu ilə təchiz edilib.

Yeni tədris ilində Heydər Əliyev Fondunun dəstəyi ilə yeni inşa olunmuş məktəb binaları istifadəyə verilib. Bu məktəblər sırasında Ağstafa rayonu Zəlimxan kənd A.Asimoğlu adına tam orta məktəbin binası da var. Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, Qazax–Tovuz Regional Təhsil İdarəsinin müdiri Aslan Hacıyev çıxış edərək, ölkəmizdə təhsil sahəsinə göstərilən dövlət qayğısından söz açıblar. Həmçinin Heydər Əliyev Fondunun Azərbaycan təhsilinin inkişafında oynadığı roldan danışılıb, bu istiqamətdə həyata keçirilən önəmli layihələrdən bəhs edilib. Burada 12 sinif otağı, fizika və kimya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var.

Sentyabrın 16-da Şərur rayonunun Təzəkənd tam orta məktəbinin yeni binası əsaslı təmirdən sonra istifadəyə verilib. Muxtar respublikanın təhsil naziri Elxan Nəcəfov və Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov kollektivlə görüşüblər. Görüşdə son dövrlərdə ölkədə təhsilə göstərilən dövlət qayğısından bəhs edilib, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin təbrikləri kollektivə çatdırılıb. Məktəbdə yaradılan tədris şəraiti ilə tanışlıq zamanı məlumat verilib ki, 110 yerlik məktəb binasında əsaslı təmir işləri aparılıb, binanın dam örtüyü, qapı və pəncərələri dəyişdirilib, suvaq və boyama işləri görülüb. Həmçinin STEAM otağında və fizika kimya laboratoriyasında elektron lövhə quraşdırılıb, kompüter otağına yeni kompüter dəstləri qoyulub, məktəbə kamera sistemləri quraşdırılıb, kitabxana əlavə ədəbiyyatlarla zənginləşdirilib. Məktəb üçün fərdi qazanxana yaradılıb, binanın həyətində açıq idman qurğuları quraşdırılıb, həyətyanı sahədə abadlıq işləri aparılıb, yaşıllıq sahəsi salınıb, işıqlandırma və suvarma sistemləri yenilənib.

Xaçmaz rayonunun İstisu qəsəbəsində inşa olunan yeni məktəb binası istifadəyə verilib. Açılış mərasimində bildirilib ki, yarandığı gündən təhsil sahəsinə xüsusi həssaslıqla yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqaməti elan edən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramları icra edərək, ölkəmizdə bu sahəyə öz dəstəyini göstərir.

Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli, Şuşa şəhər 1 nömrəli, Xocalı şəhər 1 nömrəli, Laçın şəhər 2 nömrəli tam orta məktəblərin, həmçinin Laçın rayonunun Zabux və Sus kənd, Ağdərə rayonunun Talış kənd və Zəngilan rayonunun Ağalı kənd tam orta məktəblərində də Bilik Günü təntənə ilə qeyd edilib.

Bakı Dövlət Universitetində Bilik Günü münasibətilə yaddaqalan mərasim keçirilib. Rektor Elçin Babayev qalib ölkəmiz və xalqımız üçün bu tədris ilinin əlamətdar olduğunu, Qarabağda, Şərqi Zəngəzurda yeni məktəblərin açıldığını, Qarabağ Universitetinin fəaliyyətə başladığını bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Bilik Gününə yeni qəbul olunan tələbələr və onların valideynlərinin ali təhsil ocağı ilə ilk tanışlıqdan başlanıb.

Onlara Akademiyanın Heydər Əliyev Dövlət İdarəçilik Məktəbi, tədris auditoriyaları, tədqiqat mərkəzləri, elmi kitabxanası barədə ətraflı məlumat verilib.

Azərbaycan Dövlət Aqrar Universitetində Bilik Günü münasibətilə keçirilən mərasimdə rektor Zəfər Qurbanov bildirib ki, universitetin bakalavr pilləsinə tələbə qəbulu cari ildə 97 faiz təşkil edib, 24 ixtisas üzrə plan yerləri 100 faiz dolub.

Kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov çıxışında vurğulayıb ki, dövlətin elmə, təhsilə qayğısı nəticəsində Aqrar Universitetin maddi-texniki bazası hər il daha da güclənir. Yeni qəbul olunan tələbələri təbrik edən nazir müavini onlara nəzəri biliklərə yiyələnməklə yanaşı, praktiki və elmi-tədqiqat işlərində də yaxından iştirak etməyi tövsiyə edib.

Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev və YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov da çıxış edərək müəllim və tələbə kollektivinə təbriklərini çatdırıblar. Sonda yüksək bal toplayan bir qrup tələbəyə hədiyyələr və tələbə biletləri təqdim olunub.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Qərb bölgəsində Bilik Günü təntənələri

**2024-2025-ci tədris ilinin başlanması Göygöl rayonunda keçirilən yaddaqalan tədbirlərlə əlamətdar olub.**

Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev, aparatın məsul əməkdaşları məktəblərə gedərək, "Bilik Günü" münasibəti ilə müəllim və şagird kollektivlərini təbrik edib, təhsilə göstərilən yüksək dövlət qayğısından, bu sahədə həyata keçirilən islahatlardan və qazanılan uğurlardan danışıblar.

Qeyd edək ki, bu il Göygöl rayonu üzrə 1-ci siniflərə 811, məktəbəhazırlıq qruplarına isə 632 uşaq qəbul olunub və ümumi şagird sayı 10 min 636 nəfər təşkil edir. Göygöl Peşə məktəbində isə 20 qrupda 336 nəfər tələbə təhsilə və təlimə cəlb olunub.

*

Şəmkir rayonunun ümumtəhsil müəssisələrində yeni tədris ili ilk zəngin həyəcanlı sədaları ilə başlanıb. Mərasimlərdə rayon rəsmiləri, ziyalılar, valideynlər iştirak ediblər.

Bildirilib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, ölkəmizdə, o cümlədən Şəmkir rayonunda müasir tələblərə tam cavab verən yeni təhsil müəssisələri yaradılır, tədrisin keyfiyyəti ilbəil yaxşılaşır.

Mərasimlərdə ibtidai sinif şagirdlərinin ifasında musiqilər, səhnəciklər təqdim olunub.



*

"15 sentyabr Bilik Günü" münasibətilə Samux rayonunun ümumtəhsil məktəblərində də mərasimlər yüksək əhval-ruhiyyədə keçib.

Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev Samux şəhər 1 və 2 saylı tam orta məktəblərdə olub, yeni təhsil ilində məktəblilərə və müəllimlərə uğurlar arzulayıb. Digər məktəblərdə müəllim və şagirdlərin sevincinə şərik olan rayon rəsmiləri, ziyalılar yeni tədris ilinin başlanması münasibətilə onları təbrik edib, rayonda təhsilə göstərilən yüksək dövlət qayğısından və bu sahədə həyata keçirilən islahatlardan danışıb və inam ifadə ediblər ki, yeni "bilik marafonu" da uğurlu olacaq.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Gəncədə "Nizami günləri" layihəsi yekunlaşıb



**Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş "Nizami günləri" layihəsinin təntənəli bağlanış mərasimi keçirilib.**

Sentyabrın 11–15-də keçirilən layihənin sonuncu günü Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təqdimatında Nizami məqbərəsinin önündə görkəmli bəstəkar, Xalq artisti Əfrasiyab Bədəlbəylinin "Nizami" operası nümayiş etdirilib.

Tamaşanın bədii rəhbəri Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli çıxış edərək "Nizami günləri" layihəsini yüksək qiymətləndirib, layihənin nəinki Gəncə, ölkəmiz üçün mədəni hadisəyə çevrildiyini vurğulayıb.

"Nizami" operasında Əməkdar artistlər Ramil Qasımov (Nizami), İnarə Babayeva (Rəna), Tural Ağasıyev (Lal), solistlər Mahir Tağızadə (Atabəy), Taleh Yahyayev (Qızıl Arslan), Elmir Rüstəmov (Sərkərdə) çıxış ediblər.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva, dirijoru Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu baletmeysteri Əməkdar artist Yuriy Lobaçevdir.

Beş gün davam edən "Nizami günləri" layihəsi möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

**XQ**

## Şanlı tariximiz

# Tarixi xilaskarlığa ehtiram

**Buzovna qəsəbəsindəki R.Axundov adına mədəniyyət evində Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusunun 1918–ci il sentyabrın 15-də Bakını erməni-bolşevik işğalından azad etməsinin 106 illiyinə həsr olunan mərasim keçirilib.**



İftixarla qeyd edilib ki, bu gün də Bakıətrafı ərazilərdə həmin tarixi hadisələrin izləri qalmaqdadır. Türk əsgərlərinin qurduğu istehkamlar, şəhid türk məzarları bu qəbildəndir. Sovet rejiminin davam etdiyi 70 il ərzində şanlı tariximizdən uzaq salınsaq da, türk əsgərlərinin qardaşlıq köməyini heç bir zaman unutmamışıq.

Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, Firdovsiyyə həmin şərəfli tarixi yüksək dəyərləndirib.

Buzovna Cümə məscidinin axundu Hacı Soltan Əlizadə çıxışında bildirib ki, bu mədəniyyət evi vaxtilə Hacı İsgəndər bəyin mülkü olub. O, 1918-ci ildə kənddə ermənilərə qarşı döyüşən özünümüdafiə dəstəsinə rəhbərlik edib. Sonradan, 1937-ci ildə Hacı İsgəndər bəy tutulub mühakimə olunarkən, ondan özünümüdafiə dəstəsi üzvlərinin adlarını söyləmək tələb edilib. Lakin o, həmin şəxsləri satmadığı üçün xüsusi amansızlıqla öldürülüb.

"Dədə Qorqud" Milli Fondunun prezidenti Eldar İsmayılov 1918-ci ildə Bakının bolşeviklərdən və erməni daşnaklarından azad edilməsində ətraf kəndlərin sakinləri ilə bərabər, yerli qoçuların da müstəsna xidmətlərindən danışıb. Filologiya elmləri doktoru, professor Minaxanım Təkləli çıxışında Qafqaz İslam Ordusu ilə bağlı araşdırmalarından, AYB-nin üzvü, şair xanım Mahcamal Babayeva 1918-ci il hadisələrində həyat yoldaşlarına arxa olan qadınlarımızın qəhrəmanlığından, Zirə qəsəbə dini icma sədri Hacı Qədir Nəcəfzadə o zaman sakinlərin Qafqaz İslam Ordusuna müraciətindən, Mərdəkan sakini Pənah Babayev neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi binada (indiki 123 nömrəli tam orta məktəb) yaralı türk əsgərlərinin müalicə olunmasından bəhs ediblər. Digər natiqlər də 106 il əvvəlki Bakı hadisələrinin Azərbaycan tarixinin ən şərəfli səhifələrindən olduğunu konkret faktlarla diqqətə çatdırıblar.

*Təranə CƏBİYEVA*

## Yurdun daş arxivi

# Zaqatala qalası



**Azərbaycanın müdafiə tipli qurğularından olan tarixi Zaqatala qalasının məşhurluğu onun birinci rus işğalı zamanı Car kəndini uzun müddət rus istilasından qoruması ilə əlaqədardır.**

Çoxları 1830-cu ildə tikilmiş bu qalanı Türkmənçay müqaviləsinə imza atmış rus sərkərdəsi İvan Paskeviçin adı ilə bağlayır. Əsl həqiqət isə budur ki, o zaman Zaqatala özü qala-kənd idi və ruslar onu köhnə Zaqatala qalası adlandırırdılar. İmperiya qoşunları həmin qalanın yenilməsi və fəthi uğrunda ağır döyüşlərə girmişdilər.

Qala isə şəhərdən bir qədər yuxarıda, köhnə Zaqatala kəndinin yerində, dağa yaxın tikilmişdi və 1800 fut hündürlükdə geniş bir ərazini əhatə edirdi. Daxilində pravoslav kilsəsi, əyalət rəisinin evi (sarı ev), xəzinədarlıq binası (ağ ev) və s. vardı. Vacib strateji əhəmiyyət kəsb edən qala xəndəklər və qalın daş divarlarla yaxşı mühafizə olunurdu. Şimal kənarında dördkünc və altıüzlü qədim qüllə yerləşirdi. Və o, ruslar tərəfindən tikilməmişdi. Köhnə Zaqatala qalasına məxsus idi. Bütünlüklə kəndin ərazisini əhatə etdiyinə görə, əhali onun ətrafında məskunlaşmış və həmin əraziyə Yeni Zaqatala adı verilmişdi.

1845-ci ildə qalanın qarşısında general-mayor Qulyakova abidə qoyulub. Bu, həmin Qulyakov idi ki, 1803-cü ildə Balakən və Cara ekpedisiya başlatmış və torpaqları ələ keçirmişdi. Sonra isə Surxay xanı məhv etmək üçün Zaqatala dərəsinə girmiş, lakin bu hücum onun özünün öldürülməsi ilə sonlanmışdı.

Zaqatala kəndi 1830–51-ci illərdə mövcudluğunu qala kimi davam etdirmişdi. Rus imperatoru I Nikolayın 1851-ci il 4 iyul tarixli fərmanı ilə bu kəndə şəhər adı verilib: "Yeni Zaqatala qalası yanında olan forştat (bayır şəhər) və ya Zaqatala yeri şəhər idarəsinə yüksəldilsin". Beləliklə, Azərbaycanın gül baxçası – gözəl Zaqatala şəhərləşib.

Gürcüstanla sərhədi ayırması baxımından strateji əhəmiyyətə malik olan Car əyalətinin əldə edilməsi Zaqatalanın istilasına bağlı idi. Zaqatalanı götürmək üçün isə böyük bir qarnizon tələb olunurdu. Rus ordusu 3 dəfə Carın aşağı hissəsini tutsa da, Zaqatalanı götürməyə cürət etməmişdi.

...Rus generalı Yermolov knyaz Eristova əmr edir ki, carlıları öz pənahgahlarına sıxışdırmaq lazımdır. Eyni zamanda tapşırır ki, onlara qarşı güc işlətmək olmaz. Çünki, əks halda, carlıların yerləşdikləri ərazinin möhkəmliyi səbəbindən rusların itkiləri böyük ola bilər. Onları aclıqla ram etnək lazımdır. Beləliklə, bir müddət sonra inadkar yerlilər itaətə məcbur edilir. Carlıların göndərdiyi Hacı Mahmud itaətkarlıq nişanəsi olaraq Paskeviçə silah və qılınc gətirir. Rus generalları Balakən istehkamının alınmasını "Qafqaz müharibəsi salnaməsinin ən parlaq səhifələrindən biri" hesab edirdilər. Əlbəttə, sonrakı illərdə bir sıra qarşıdurmalar da olur, nəticə etibarı ilə ruslar ərazidə möhkəmlənə bilirlər. 1 mart 1830-cu ildə

Zaqatala qalası fəth edilir. Zaqatala kəndi yeni istehkamlarla möhkəmləndirilmiş bir qalaya çevirilir.

Yeni Zaqatala qalasında gürcü nizami batalyonu, Nijqorod draqun alayının 2 eskadronu, 19-cu artilleriya briqadası batareyalarının 4 topu və 2 qoşqu qarnizon topu yerləşdirilir. Bundan başqa, azərbaycanlılar və ləzgilərdən (ruslar digər millətlərdən olan yerli camaatı belə adlandırırdı) ibarət süvari milisi də toplanır və orada xidmətə təyin edilirlər.

Zaqatala qalası imperiya hökuməti üçün Azərbaycanın şimal–qərb bölgəsində baş verən qiyamların yatırılması baxımından, cəld müdaxilə edilməsi üçün ən vacib qoşun qərargahı hesab olunurdu. Quba, Nuxa, Qax, İlisu sultanlığındakı çar hökumətinin əleyhinə olan qiyamçılar bir neçə dəfə Zaqatala qalasını ruslardan almağa çalışsalar da, cəhdləri uğursuz olmuşdu. Ruslar burada möhkəm istehkam qurmuşdular və zaman-zaman qalanın müdafiə qabiliyyətini təkmilləşdirirdilər.

Əsl həqiqət budur ki, Zaqatala qalasını heç də ruslar tikməyiblər. Sadəcə olaraq, rus imperiya hökuməti qədim qalanı ələ keçirdikdən sonra orada bir sıra yeni istehkam qurğuları tikərək, özlərinə uyğun vəziyyətə gətirib və qoşun hissələri üçün iri mənzil-qərargaha çeviriblər.

Azərbaycan hökuməti Zaqatala qalasının tarixi əhəmiyyətliyini nəzərə alaraq bir neçə vacib qərar qəbul edib. Az.SSR Nazirlər Sovetinin 1984-cü il 24 yanvar tarixli qərarı ilə bu qalanın ərazisi respublika əhəmiyyətli tarix-mədəniyyət qoruğu elan edilib. Həmin ilin 7 may tarixli qərarı ilə isə sözügedən qoruq barədə 4 fəsil, 17 maddədən ibarət Əsasnamə təsdiq və qəbul edilib.

Bəli, unutmayaq ki, Zaqatala qalasının bünövrəsini qoyan da, sahibi də biz özümüzük!

*Yeganə Kamal CABBARLI,*
*Milli Arxiv İdarəsi elmi-məlumat kitabxanasının müdiri*

## Görkəmli türklər

# "Mir Cəlal. "Nizami Gəncəvi dünyası" kitabının təqdimatı

**"Ədibin Evi" və Türk Mədəniyyəti və İrsi Fondunun ortaq layihəsi olan yeni kitab "Türk dünyasının görkəmli şəxsiyyətləri" seriya nəşrlərinin bir hissəsidir.**



Xatırladaq ki, bu seriyadan ilk nəşr Prezident İlham Əliyevin sərəncamı ilə bu il 530 illik yubileyi qeyd edilən dahi şair Məhəmməd Füzuli haqqında "Heydər Əliyev və Məhəmməd Füzuli" kitabı olub.

Türk Mədəniyyəti və İrsi Fondunun baş qərargahında keçirilən təqdimat mərasimində görkəmli yazıçılar, şairlər, ədəbiyyatşünaslar, eləcə də türk dünyasının Bakıdakı diplomatik korpusunun nümayəndələri və aparıcı media üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən "Ədibin Evi"nin icraçı direktoru Şəfəq Mehrəliyeva vurğulayıb ki, Nizami Türk dünyası ədəbiyyatının sütun imzalarındadnıdr. Onun irsi yarandığı gündən əsərlərində tərənnüm etdiyi bəşəri dəyərlərlə yanaşı, türk təfəkkürünü təbliğ etdiyinə görə Türk dünyasında nümunə, ilham və təlqin mənbəyinə çevrilib.



Türk Mədəniyyəti və İrsi Fondu prezidenti Aktotı Raimkulova bildirib ki, "Türk dünyasının görkəmli şəxsiyyətləri" seriyası ilə yanaşı, Fond, həmçinin "Türk dünyasının ədəbi inciləri" və "Türk dünyasının elmi inciləri" adlı kitab seriyası da nəşr edir. O, yeni nəşrin kitabsevərlər tərəfindən yüksək rəğbətlə qarşılanacağına inanını ifadə edib.

AYB-nin Gənclər Şurasının sədri, şair Fərid Hüseyn, BDU-nun professoru Təhsin Mütəllimov, akademik Rafael Hüseynov, Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışlarında Nizami Gəncəvinin mənəvi dünyasının Azərbaycan ədəbiyyatında yaratdığı izlərin Mir Cəlal yaradıcılığında dərindən araşdırıldığını və gələcək nəsillər üçün ədədi miras kimi qalacağını qeyd ediblər.

Mir Cəlalın oğlu, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev türk xalqlarının ədəbi şəxsiyyətlərinin yaradıcılığının tanıdılmasının əhəmiyyətini vurğulayıb və Türk Mədəniyyəti və İrsi Fonduna fəaliyyətində uğurlar arzulayıb.

*XQ*

# Azərbaycanlı rəssamın Ginnes rekordu

**"Ginnesin rekordlar kitabı" dünyada ən məşhur qaynaqlardan nəşrlərdən sayılır. Ötən il bu nəşr 100 milyondan artıq tirajla satılıb.**



Oraya bir neçə azərbaycanlı da düşə bilib. İlk düşən isə Fəxrəddin Vəliyev olub. Belçikada yaşayan rəssam həyatının 25 ilini qrafika sənətinə həsr edib. Fəxrəddin Vəliyev Sumqayıtda boya-başa çatıb. Həmyerlimiz 1992–1995-ci illərdə Afinada və İstanbulda fərdi sərgilər təşkil edib, 2003-cü ilin dekabrında "Belqium" muzeyində Belçika kraliçasının rəsmini çəkib. Kraliça isə ona məktub vasitəsilə təşəkkürünü bildirib. Qeyri-adi qabiliyyəti olan rəssam 2004-cü ildə 5 dəqiqəyə 20 nəfərin siluetini çəkməklə rekord qazanıb.

Fəxrəddin Vəliyev Azərbaycanın Belçikada tanınması üçün də xeyli işlər görüb. O, hazırda bu ölkədəki Avropa–Azərbaycan diaspor mərkəzinin vitse-prezidentidir.

*Ə.ƏLİYEV*
*XQ*

# Şuşada Türk dünyası tədqiqatçı və arxeoloqlarının I toplantısı

**Türk Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığı Şuşada Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyinin ilk toplantısı keçirilib.**



Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Macarıstan, Özbəkistan və Tatarıstanın tanınmış elmi-tədqiqat mərkəzlərinin nümayəndələrinin iştirak etdiyi məclisdə Türk Akademiyasının prezidenti Şahin Mustafayev toplantının Azərbaycanın tarixi mədəniyyət mərkəzlərindən biri olan Şuşa şəhərində keçirilməsinin rəmzi məna daşıdığını vurğulayıb. O, müasir dünya elminin çağırışlarına uyğun Türk dünyası arxeologiyasının qarşısında duran fəaliyyət istiqamətləri barədə konsepsiyanın əsas tezislərini açıqlayaraq bildirib ki, ARICA-nın məqsədi əməkdaşlığı təşviq etmək, birgə tədqiqatlar, ekspedisiyalar həyata keçirmək, mütəxəssislər hazırlamaq və elmi ədəbiyyat nəşr etməkdir.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev işğaldan azad edilmiş Azərbaycan torpaqlarında aparılan bərpa və quruculuq işləri kontekstində arxeoloqların üzərinə düşən vəzifələrdən danışıb. Sonra tədbir iştirakçıları "Türk-islam irsinin tədqiqatları" və "Türk xalqlarının Avrasiyada mədəni təsirləri" mövzuları üzrə sessiyalarda təqdimatlarla çıxış ediblər.

Məclisin ilkin nəticəsi Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyinin yaradılması olub. Toplantının qətnaməsində Türk dünyasının arxeoloji irsinin araşdırılmasında qarşılıqlı əməkdaşlığın istiqamətləri öz əksini tapıb.

**XQ**

El şənlikləri

# Göygöldə bərəkət, bolluq, şükranlıq bayramı

## *İlk moruq festivalı böyük təntənə ilə keçdi*



**Onlar bu bayrama çoxdan hazırlaşırdılar. Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayevin müşavirələrin birində “ moruq bu rayonu tanıdan nemətlərdən biridir, niyə onun bayramını təşkil etməyək?” deməsi hamının ürəyincə oldu. Bu da səbəbsiz deyildi.**

Əvvəla, yüz illərdir ki, bu bölgədə çox dadlı bir neçə növ moruq yetişir. İnsan orqanizmi üçün çox faydalı olan moruğun satışında heç vaxt problem olmayıb və bu məhsula tələbat həmişə var. İkincisi, artıq xeyli



vaxtdır ki, rayonda ayrı-ayrı sahibkarlar moruq yetişdirməyə başlayıblar və faydasını da görürlər. Onlara dövlət dəstəyi də var, yerli icra strukturları da daim onların problemlərinin həllində, başlıcası isə moruğun yetişdirilməsi ilə bağlı izahat-təbliğat işlərinə böyük əhəmiyyət verir, kənd sakinləri, fermerlərlə vaxtaşırı görüşlər təşkil edirlər.

...Səhər saat 10-dur. Festivalın təşkil olunduğu məkana – rayonun Köşkü kəndinə gəlmişik. Mənzərəli bir yer seçilib. Hərə festivala öz yetişdirdiyi məhsulu çıxarıb. Daha çox moruğun satış-yarmarkası təşkil olunsa da burada bütün nemətlər var. Müxtəlif növ mürəbbələr, şirələr, bal məhsulları, dərman preparatları, kənd təsərrüfatında xırda sahibkarlıqda istifadə olunan mini texnika, şərab, ədəbiyyat...

Səliqə ilə yan-yana düzülmüş ayrı-ayrı pavilyonlara yaxınlaşırıq. Həyətyanı sahəsində, yaxud pay torpağında yetişdirdikləri məhsulu həvəslə nümayiş etdirən rayon sakinləri sanki belə bir bayramın keçirilməsini çoxdan arzulayırlarmış.

Çaykənd sakini Şəfa Əliyeva deyir ki, 10 sot moruq bağım var. Ailə üzvlərimlə ilboyu bu məhsulun nazını çəkirik və faydasını da görürük. Belə bir festivalın keçirilməsi bizə əlavə



stimul verir, ona marağımızı daha da artırır. Gələcəkdə moruq kollarının sayını bir qədər də artıracağıq.

Bizi müşayət edən rayon icra hakimiyyətinin məsul işçisi Vüqar Hüseynov deyir ki, belə bir festivalın keçirilməsini nəinki rayonumuzun sakinləri, ətraf rayonlar da sonsuz maraqla, razılıqla qarşılayıblar və bir çoxu bu festivalda iştirak etmək istədiklərini əvvəlcədən bizə bildirib və onlara da yerlər ayrılıb.

**Murad Tağıyev Gəncə şəhərindən gəlib arı məhsulları satır, bal nümayiş etdirir:**

– Təsərrüfatımızda 200 yeşiyə yaxın arı qutusu var. Onları daha çox Samux rayonunun müxtəlif yerlərində saxlayırıq. Bizimlə birgə 80 nəfərə yaxın adam işləyir. Sevinirik ki, bu qədər iş yeri aça bilmişik. Belə festivallar bizə şans verir, imkan yaradır ki, məhsullarımızı tanıda bilirik, onun satışına nail oluruq. Sağ olsunlar təşkilatçıları, əsl bayram əhval-ruhiyyəsi yaradıblar.

Ruzi Nuriyev isə Gəncədəki Şərabçılıq Elmi Tədqiqat İnstitutunu təmsil edir. Respublikanın müxtəlif bölgələrində, o cümlədən Qarabağda müxtəlif növ üzüm sortları yetişdirənlərə elmi-metodiki, praktiki kömək göstərir. Buradakı pavilyonda ən qiymətli üzüm sortlarından hazırladıqları şərabları nümayiş etdirirdilər.Ruzi deyir ki, məqsədimiz həmin məhsulların kütləvi istehsalına nail olmaq və xarici bazara çıxmaqdır.

**Topalhəsənli kənd sakini Muğan Yolçuyev ilə də söhbət edirik.** Deyir ki, 30 sot moruq sahəm var. Bu il hələ bir qədər yağıntılı keçməsinə baxmayaraq, 6 min manatdan çox gəlir əldə etmişik. Ailə üzvlərimin hamısı moruqçuluqla məşğuldur. Sağ olsunlar, belə bir festival keçirirlər və biz daha da həvəslənirik, adamlara gərəkli olduğumuzu bir daha görürük.

**Bir azdan rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev, digər rəsmilər, qonaqlar festivala qatılırlar. Rayon rəhbəri çıxış edərək iştirakçıları salamlayır, onlara uğurlar arzulayır:**

– Azərbaycanımız zəngin ölkədir, hər bir nemətimiz var. Gərək bunların hamısını bütün dünyaya tanıda biləк. Ölkə Prezidenti cənab İlham Əliyev kənd adamlarına, sahibkarlara hər cür şərait yaradıb. Biz də bu imkanlardan yararlanmağı bacarmalıyıq. Göygöldə ilk dəfə təşkil etdiyimiz bu festivalı ənənə şəklinə salmalıyıq və belə də olacaq.

Daha sonra kənd adamları, fermerlər, bir sözlə, festivalda məhsul nümayiş etdirən hər kəs öz ürək sözlərini dedi.

Festival bazar günü – sentyabrın 15-də də davam etdirilmişdir.Yenə səhər tezdən minlərlə sakin, qonaq dağlar qoynuna–Köşküyə axışdı. Yenə satış sərgi, görüşlər, konsert nömrələri, idman yarışları...

Artıq şər qaralır, lakin heç kim bu yerlərdən getmək istəmir. Bax beləcə Göygöl rayonunda gözəl bir ənənənin təməli qoyulur.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

**Göygöl**

# MDB ölkələrinin mədəni inteqrasiyası güclənir

**Rusiyanın Sankt-Peterburq şəhərində Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Mədəni Əməkdaşlıq Şurasının növbəti iclasında ölkəmiz də təmsil olunub. X Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyət Forumu çərçivəsində reallaşan toplantıda Rusiya, Özbəkistan, Belarus və digər ölkələrin mədəniyyət nazirləri, müvafiq qurumların nümayəndələri iştirak ediblər.**



Azərbaycan mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov iclasın birlik ölkələrinin mədəni əməkdaşlığının genişlənməsində önəmini belə dəyərləndirdi:

–MDB-yə üzv ölkələrlə digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əməkdaşlığı davam etdiririk. Budəfəki iclas göstərdi ki, ölkələrarası mədəni inteqrasiya yeni mərhələyə qədəm qoyub. Bildiyiniz kimi, Laçın şəhəri 2025-ci il üçün “MDB-nin mədəniyyət paytaxtı” elan olunub. İclasda çıxış edərək, Azərbaycanın bu qərarı yüksək qiymətləndirdiyini bildirdik.

2025-ci ildə ölkəmizdə keçiriləcək III MDB Oyunları da yaxınlaşmaya böyük imkanlar yaradacaq əhəmiyyətli hadisədir. İdman və incəsənətin həmahəng olduğunu, millətlərarası dialoqun yeni aspektlərini yarada biləcəyini nümayiş etdirmək üçün geniş mədəni proqram hazırlayırıq.

Qeyd edək ki, mədəni əməkdaşlığın üfüqlərini genişləndirməyə xidmət edən bu cür beynəlxalq incəsənət layihələrinin davamlı təşkili mühüm əhəmiyyət daşıyır.

***Ceyhun BALABƏY***
***XQ***

Demokratiyanın tərs üzü

**ABŞ-də noyabrın 5-də keçiriləcək prezident seçkiləri dünyanın diqqət mərkəzindədir. Bu mövzunun qlobal medianın gündəmində olması da təbiidir. Ağ evə iki əsas namizəddən biri – 45-ci prezident Donald Trampla bağlı bugünlərdə növbəti sensasiyalı xəbər yayıldı.**

# Trampa qarşı ikinci sui-qəsd cəhdi

## *Qlobal mediada bu mövzuda fərqli ehtimal və fərziyyələr səslənir*



Belə ki, sentyabrın 15-də Trampın olduğu Florida ştatında, qolf klubunun yanında atəş açılıb. Ehtimal olunur ki, silahlı şəxs prezidentliyə namizədə hücum etməyi planlaşdırıbmış. Bu barədə CNN bir çox yerli və federal mənbələrə istinadən bildirib. “The New York Post” qəzeti isə xəbər yayıb ki, “Palm beach” (Florida ştatı) qolf klubunda şübhə doğuran bir kişi Federal Məxfi Xidmətin əməkdaşının diqqətini cəlb edib və təhlükəsizlik əməkdaşı onun əlində silaha bənzəyən əşyanı gördükdə atəş açılıb. Həmin şəxs yerli polis tərəfindən saxlanılıb.

Başqa bir versiya da var. Belə ki, bir sıra nəşrlər yazırlar ki, sözügedən obyektdəki atışma heç də Trampa qarşı yönəlməyib. Atəş açanlar bir-birini nişan alıblar. Lakin ABŞ hakimiyyət orqanları hadisəni Trampa qarşı sui-qəsd cəhdi kimi qiymətləndirib.

Yeri gəlmişkən, populyar “Fox news" telekanalı məlumat yayıb ki, Trampa qarşı sui-qəsd cəhdində şübhəli bilinən şəxsin adı və soyadı Rayan Uesli Rutdur. Rut avtomatının lüləsini qolf klubunun hasarından keçirib. O, Ağ evin keçmiş rəhbərindən 270 metr aralıda olub. Bəzi nəşrlərdə hətta Rutun ukraynapərəst olduğu barədə fərziyyələr dolaşır.

Amerikalı milyarder İlon Mask dövlət başçısı postuna namizəd Trampın həyatına ikinci sui-qəsd cəhdini şərh edib. O, özünün sosial media platformasında belə bir ritorik sual yerləşdirib: “Nə üçün yalnız Respublikaçılar partiyasının namizədinə sui-qəsd təşkil olunur? Heç kim Prezident Cozef Baydeni, yaxud vitse-prezident Kamala Harrisi öldürməyə cəhd göstərmir?!”

Bu arada ABŞ lideri Cozef Bayden Məxfi Xidmətin rəhbərliyinə Trampın təhlükəsizliyini daha da gücləndirməyi tapşırıb. Baydenin adından Ağ evin mətbuat xidmətinin yayımladığı bəyanatda deyilir ki, “Birləşmiş Ştatlarda hər hansı bir cinayət əməli kimi siyasi motivli zorakılığa yer yoxdur”.

Yeri gəlmişkən, bir çox nüfuzlu siyasətçilər bu məsələyə münasibət bildirirlər. Məsələn, Kremlin mətbuat katibi Dmitri Peskov Trampa sui-qəsddə şübhəli bilinən şəxslə Ukrayna arasında əlaqələr barədə Rusiyanın deyil, ABŞ xüsusi xidmət orqanlarının düşünməli olduğunu söyləyib: “Rusiya ABŞ-də daxili siyasi proseslərə qarışmayıb və indi də qarışmır. Kreml seçki kampaniyası dövründə ABŞ-də vəziyyəti gərgin hesab edir”.

Xatırladaq ki, bu, sabiq prezidentə qarşı artıq ikinci sui-qəsd cəhdidir. Trampın həyatına əvvəlki sui-qəsd cəhdi iyulun 13-də Pensilvaniya ştatında baş vermişdi. Onun çıxış etdiyi səhnədən, təxminən, 100 metr aralıdakı binanın damında gizlənən cinayətkar Respublikaçılar partiyasından prezidentliyə vahid namizədə atəş açmışdı. Hadisə nəticəsində sabiq dövlət başçısı qulağından yaralanmışdı.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Qərbin hərbi yardımı Ermənistanı yeni məğlubiyyətə sürükləyir

**“Minsk İrəvan ilə əməkdaşlığa və onlara kömək etməyə hazırdır, amma Ermənistan Avropa İttifaqına qoşulmaq istəyir”. Bu barədə Belarus Prezidenti Aleksandr Lukaşenko respublikada yaşayan müxtəlif millətlərin nümayəndələri ilə görüşdə bildirib.**



Belarus lideri İrəvan ilə münasibətlərin pisləşməsində Minskin günahı olmadığını vurğulayıb: “Yaxşı olardı ki, bütün çatışmazlıqlara və nüanslara baxmayaraq, əvvəlki kimi Ermənistanla yaxşı münasibətlər quraq. İnanın ki, bu, qətiyyən bizim günahımız deyil. Biz ermənilərə kömək etməyə çalışdıq, əməkdaşlıq etdik və dəstək verdik. Lakin görünür, Qərbə, Avropa İttifaqına getmək istəyirlər".

Dövlət başçısı daha sonra deyib: “O hansı Qərbdir? Qərblə, amerikalılarla əməkdaşlığa qarşı deyilik, amma onların siyasətini görürsünüz... Sabah ABŞ-də hakimiyyətə yeni rəhbərlik gələrsə, siyasət tamamilə fərqli olacaq. Onların vərdişləri belədir: “Sən kimsən? Biz sizi tanımırıq! Bu, onların siyasətidir. Onlara etibar etmək olmaz. Ermənilər ağıllı insanlardır. Yaxın gələcəkdə onlar xoşbəxtliyin harada olduğunu anlayacaqlar”.

Lukaşenkonun bildirdiyi kimi, Qərbdə Ermənistana yalan vədlər verməklə onu fəlakətə sürükləyirlər. Bu ölkəni Avropa İttifaqına üzvlüyə qəbul etmək bir yana qalsın, hər vəchlə Cənubi Qafqazda sülh prosesinə əngəl törətməyə çalışırlar. Aydın görünür ki, regionda gedən sülh prosesləri Qərbin müxtəlif strukturlarını, eləcə də Brüsseldə oturan Avropa Şurasının siyasətçilərini qane etmir. Bu səbəbdən də bölgədə təxribata, gərginliyə yönəlik addımlar atırlar. Aİ Ermənistandakı mülki missiyasının sayını artırır. Bunun arxasında Aİ-nin məkrli planları gizlənir.

Fransanın Ermənistanı silahlandırması da bu siyasətin tərkib hissəsidir. Paris yeni eskalasiya və gərginlik ocağı yaratmağa çalışır. Bu məqsədlə Paris Ermənistana satdığı silah-sursatın çeşidini genişləndirir, ölkə rəhbərliyini revanşizmə təşviq edir. Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı iki tərəf arasında “CAESAR” özüyeriyən artilleriya sistemlərinin alınmasına dair müqavilə imzalanıb. “CAESAR”ları satın almaqla Ermənistan, əslində, Azərbaycanla yeni savaşa hazırlaşdığını, Fransa isə bu silahları satmaqla rəsmi İrəvanı müharibəyə hazırladığını gizlətmir.

Bu razılaşma Ermənistanın Fransadan 3 ədəd GM200 radar sistemi, 50 ədəd “Bastion” tipli zirehli texnika satın alması və “Mistral” qısamənzilli hava hücumundan müdafiə sistemlərinin gələcəkdə alınmasına dair imzaladığı müqavilə ilə başlanan revanşa hazırlıq prosesinin tərkib hissəsi sayılmalıdır.

Bu azmış kimi, Hindistan Parisin köməyi və rəsmi icazəsi ilə “Trayan” özüyeriyən artilleriya sistemlərini Ermənistana çatdıracaq. Söhbət “Nexter systems” və “Sezar” özüyeriyən artilleriya sistemlərinin hind analoqundan gedir. Razılaşmanın icrasını gizlətmək üçün 155 mm/52 kalibrli silahların birbaşa uçuşlarla deyil, əvvəlcə İran ərazisinə, sonra isə quru yol ilə Ermənistana çatdırılması planlaşdırılır. Budur Qərbin Ermənistana vəd etdiyi üstünlüklər və Ermənistanın Qərbə meyillənməsinin səbəbi?! İrəvan daha böyük maliyyə dəstəyinə də ümid edir. Qərbdə isə havayı pul verən yoxdur.

Bəs Ermənistan silahlanmaqla nəyə nail olmaq istəyir? Bu barədə Plexanov adına Rusiya İqtisad Universitetinin müəllimi, hərbi politoloq Aleksandr Perendjiyev bildirib ki, Ermənistan Qərbdən, sadəcə, yeni silahlar almır, həm də Ukraynaya öz köhnə sovet silahlarını ixrac edir. Bununla da Kiyevə Rusiyaya qarşı mübarizədə kömək edir: “Söhbət Ermənistanda silahların artırılmasından yox, yenidən silahlanmadan gedir. Sovet silahları əvəzinə, Qərb silahları alınır. Üstəlik, burada anti-Azərbaycan deyil, Rusiya əleyhinə çox şeylər var. Çünki bu yaxınlarda Ermənistandan xeyli sovet silahı Ukraynaya gətirilib. Bu, ABŞ-nin əmri ilə edilir. Qərb silahları İrəvana çatdırılır”.

Aleksandr Perendjiyev sonra vurğulayıb: “Yəni bizim və Bakının da gördüyü silah tədarükü sovet silahlarını Ukraynaya verdiyinə görə Ermənistana vəd edilən Qərb təzminatıdır. Paşinyan heç nə ödəməli olmadığına görə, bununla razılaşıb. O, Qərb kuratorlarının göstərişlərinə əməl edir”.

Hərbi politoloq onu da qeyd edib ki, Azərbaycan ordusunu ardıcıl olaraq gücləndirir. Hələ də regionun əsas hərbi qüvvəsidir və Ermənistanın Cənubi Qafqazın təhlükəsizliyini təhdid etmək cəhdlərinin qarşısını almağa qadirdir: “Qərbin bu silah təzminatı müəyyən mənada Ermənistan ordusunu gücləndirir, lakin o qədər yox ki, Azərbaycan mövqelərinə hücum etsin və Azərbaycan ordusundan güclü olsun. Fransa Azərbaycanın əl-qolunu sallayıb gözləməyəcəyini yaxşı bilir. Bakı da cavab addımları atır. Azərbaycan ordusu Ermənistan ordusundan çox güclüdür. İndiyədək Ermənistanın malik olduğu hərbi güc Azərbaycan ordusuna müqavimət göstərmək üçün yetərli deyil”.

Beləliklə, Fransa öz hərəkətləri ilə regionu yeni hərbi eskalasiyaya sövq edir, Ermənistanı fəlakətə sürükləyir. Qərbin hərbi yardımının sonu Ermənistan üçün yeni məğlubiyyətdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 202 (30606) 17 sentyabr 2024-cü il, çərşənbə axşamı

# Azərbaycanda Formula 1 yarışları bu dəfə daha böyük uğurla başa çatdı

**Azərbaycan paytaxtı Bakı sentyabrın 13–15-də 8-ci dəfə Formula 1 yarışına böyük uğurla evsahibliyi etdi. Dünyada 500 milyondan çox tamaşaçısı olan bu ecazkar yarış möhtəşəm Bakı trekində sürət həvəskarlarına unudulmaz anlar bəxş etdi.**



Mürəkkəb konfiqurasiyalı trasda son dərəcə maraqlı və gərgin idman mübarizəsi aparıldığından, eləcə də, gözlənilməz nəticələr qeydə alındığı üçün istər Formula 1 pilotları, istərsə də komandaların rəsmiləri builki yarışı da böyük həyəcanla gözləyirdilər.

Sürət həvəskarlarının bənzərsiz Bakı trasında böyük heyranlıqla izlədikləri Azərbaycan Qran-Prisinin son yarış günü də maraqlı və gərgin idman mübarizəsi şəraitində keçdi. Əvvəlcə Qran-Prinin açılış mərasimi keçirildi. Dövlət Himnini Avroviziya-2022-də Azərbaycanı təmsil edən Nadir Rüstəmli səsləndirdi. Mərasimdə himn klassik üslubda ifa edildi. Səhnə tərtibatı “Xan Qarabağ” xalçasının açılmış şəkildə görünüşünü xatırladırdı. Bununla Azərbaycanın zəngin mədəni irsindən qiymətli bir nümunəni nümayiş etdirirdi.



Açılışdan sonra Formula 1 Azərbaycan Qran-Prisi-2024-ün əsas yarışı start götürdü. Mübarizə hər biri 2 pilotdan ibarət 10 komanda arasında aparıldı. Qalibin müəyyənləşdirilməsi üçün pilotlar Bakı Şəhər Halqasında 2 saat ərzində 51 dövrə vurdular.

Gərgin idman mübarizəsi şəraitində yüksək sürətdən doğan adrenalin azarkeşlərə həyəcanlı anlar yaşadırdı. Sonda rəqibləri üçün əlçatmaz olan “McLaren”in avstraliyalı pilotu Oskar Piastri Qran-Prinin qalibi oldu. Şarl Lekler (“Ferrari”) 2-ci, Corc Rassell (“Mercedes”) 3-cü sırada qərarlaşdılar.

Sonra Formula 1 Azərbaycan Qran-Prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirildi. Əvvəlcə qalib idmançının və komandanın şərəfinə Böyük Britaniya və Avstraliya Dövlət himnləri səsləndirildi. Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və “Qatar airways”in Afrika üzrə vitse-prezidenti Hendrik Du Preez təqdim etdilər.

Beləliklə, 16 Qran-Pridən sonra “Red Bull”un niderlandlı pilotu Maks Ferstappen pilotların siyahısında 313 xalla liderdir. “McLaren”də çıxış edən Lando Norris 254 xalla 2-ci yerdədir. İlk “beşlik”də 235 xalla Şarl Lekler (“Ferrari”), 222 xalla Oskar Piastri (“McLaren”) və 184 xalla Karlos Sayns (“Ferrari”) qərarlaşıblar.

“McLaren” komandası 476 xalla Konstruktorlar kubokuna başçılıq edir. “Red Bull” 456 xalla 2-ci, “Ferrari” 425 xalla 3-cü pillədə yer alıblar.

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da yüksək səviyyədə keçirildi. Bu yarışda isə hər biri 2 pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə apardı. “Trident” komandasının pilotu Rixard Verxsor ən yüksək nəticə ilə 1-ci yerə layiq görüldü. “Art Grand Prix”dən Viktor Martins 2-ci, “Prema Racing”dən Andrea Kimi Antonelli 3-cü yerləri tutdular.

Azərbaycan 2016-cı ildən dünyanın ən nüfuzlu avtoidman yarışına evsahibliyi edir. Ölkəmizdə təşkil olunan ilk Formula 1 yarışı Avropa Qran-Prisi adı ilə keçirilib. Həmin yarışda almaniyalı Niko Rosberq qalib olub. Növbəti illərdə müvafiq olaraq Daniel Rikkardo (Avstraliya), Luis Hemilton (Böyük Britaniya), Valtteri Bottas (Finlandiya), Serxio Peres (Meksika) və Maks Ferstappen (Niderland) bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Yalnız 2020-ci ildə Azərbaycan Qran-Prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı Bakı treki məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan hissələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Xatırladaq ki, builki dünya çempionatı fevralın 29-da Bəhreyn Qran-Prisi ilə start götürüb. Səudiyyə Ərəbistanı, Avstraliya və Yaponiya, Çin, ABŞ, İtaliya (İmola), Monako, Kanada, İspaniya, Avstriya, Böyük Britaniya, Macarıstan, Almaniya, Niderland və İtaliyada (Monza) sonrakı mərhələlər təşkil olunub. Yarış dekabrın 6–8-də Əbu-Dabidəki Qran-Pri ilə başa çatacaq.

*Leyla QURBANOVA*
*XQ*

## Qadın marşallar idman dünyası üçün yeni nümunə oldular



**Formula 1 Azərbaycan Qran-Prisində qadın marşalların fəaliyyəti də diqqət mərkəzində olub. Onların fəal rolunu nəzərə alaraq yarış zamanı Bakı Şəhər Halqasının həlledici, 16.2-ci döngəsində “Qadın marşal postu” fəaliyyət göstərib.**

Artıq üçüncü ildir ki, tətbiq edilən bu təşəbbüslə qadın marşallar yarış əməliyyatlarında ön sıralarda olur ki, bu da yeniliyə və tədbirin əhəmiyyətli məqamına çevrilir. Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin baş direktoru Maqsud Fərzullayev və Azərbaycanda səfərdə olan Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem qadın marşallarla görüşüb.



**M.Fərzullayev qadın marşallarımızın 16-cı döngədə yerləşən postunun yarışın gələcəyində onların töhfələrinin nə qədər vacib olduğunu göstərdiyini deyib:**

– Qadınları belə mühüm bir posta yerləşdirməklə, biz, sadəcə, onların nailiyyətlərini qeyd etmirik, eyni zamanda, daha inklüziv və dinamik bir idman üçün yol açırıq. Qlobal miqyasda motoraport inkişaf etdikcə, Bakı Şəhər Halqasının “Qadın marşal postu” bu idmanın müxtəlifliyi qəbul etdiyini və qadınlar üçün daha çox imkanlar yaratdığını nümayiş etdirir.

FIA prezidenti Azərbaycan Avtomobil Federasiyası və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin qadınların idmandakı nüfuzunun artması üçün bu cür təşəbbüslə çıxış etməsinin qürurverici olduğunu diqqətə çatdırıb:

– Bərabərlik, müxtəliflilik və inklüzivlik siyasəti FIA-nın başlıca qayəsi olmaqla, qadınların idarəçilik mövqeyinin artmasına töhfə vermək vacib məqsədlərimizdəndir. Ümid edirəm ki, Bakı yarışının qadın marşalları idman dünyası üçün yeni ilham mənbəyi olacaq.

## Gənc gimnastlarımızın dünya qızılı




**Portuqaliyanın Gimaraeş şəhərində akrobatika gimnastikası üzrə yaş qrupları yarışları çərçivəsində gənclər arasında Dünya çempionatında təmsilçilərimiz fərqləniblər.**

13 – 19 yaşlı idmançılar arasında keçirilən yarışda Nəzrin Zeyniyeva, Zöhrə Rəşidova və Anahitə Bəşiridən ibarət Azərbaycan qadın qrupu finalda da inamla çıxış edib. Gimnastlarımız həlledici mərhələdə rəqiblərini üstələyərək 1-ci yeri tutublar.

## Cüdoçularımız Qran-Pri yarışında 3 mükafat qazanıblar



**Cüdo üzrə Azərbaycan yığması Zaqrebdə keçirilən Qran-Pri yarışında 3 medal qazanıb.**

Əhməd Yusifov (60 kq) gümüş, Turan Bayramov (60 kq) və Ruslan Paşayev (66 kq) isə bürünc medallara sahib çıxıblar. Qran-Pridə, ümumilikdə, 21 ölkənin idmançıları mükafatlar qazanıblar.

*L.AZAD*
*XQ*

## Payızın yağış müjdəsi

**Bu gün Bakıda və Abşeron yarımadasında havanın arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir. Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Qeyd edilib ki, yarımadanın bəzi yerlərində yağışın qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gündüz hava dəyişkən buludlu olacaq, əsasən, yağmursuz keçəcək. Mülayim şimal-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 15-20° isti, gündüz 24-27° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq.



Azərbaycanın əksər rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən, dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-17° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-10° isti, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Bakı yarışında yeni rekord



**“Haas”ın pilotu Formula 1-də nadir rekord qazanıb.**

19 yaşlı britaniyalı Bakı trekində 10-cu nəticə göstərərək xal əldə edib. Berman Formula 1 tarixində 2 fərqli komandada ilk 2 yarışda xal toplayan ilk pilot olub.

Gənc sürücü bu il Səudiyyə Ərəbistanında mövsümün üçüncü turunda “Ferrari” sürücüsü Karlos Saynsı əvəzləyərək Formula 1-də debüt edib. O vaxtı britaniyalı Cid-dədə 6 xal yığaraq 7-ci yeri tutmuşdu. Bakıdan isə Berman 1 xal aparıb.

✓ ***“Qlobal Azəri” MMC tərəfindən Bayramova Sona Fəxrəddin qızının adına 25.06.2016- cı il tarixində verilmiş Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Talıblı küçəsi ünvanında inşa edilmiş yaşayış binasının müqavilə və maliyyə arayışı sənədi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Hidayət Orucov ailəsi ilə birlikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi və kollektivi universitetin İncəsənət və fiziki tərbiyə fakültəsinin musiqi və onun tədrisi texnologiyası kafedrasının müdiri, dosent Laçın Həsənovaya atası

**XALİD ƏLİMƏRDANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3935
SİFARİŞ 2119
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00